AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

ADMİU

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ
İNCƏSƏNƏT UNİVERSİTETİ

**Publik Hüquqi Şəxsi**



**TƏLƏBƏ BƏLƏDÇİ KİTABÇASI**

# ADMİU – SƏNƏTƏ GEDƏN YOL BİZDƏN KEÇİR

Bakı – 2024



**Təsdiq edirəm**
**ADMİU-nun rektoru**
**__________ Professor Ceyran Mahmudova**
**"___" "_____________" 2024-cü il**

**Azərbaycan  Respublikası Elm və Təhsil Nazirliyi**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Publik Hüquqi Şəxsi**

# Tələbə bələdçi kitabçası

*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin*
*Elmi Şurasının "____" "_____________" 2023-cü il*
*tarixli iclasında təsdiq edilmişdir.*

**Bakı – 2024**

Tərtib edənlər: Tədris işləri üzrə prorektor, fil.ü.f.d., dosent Nigar Rüstəmova
Tədris şöbəsinin aparıcı mütəxəssisi İlahə İsmayılova

Vizual tərtibat: Əməkdar rəssam Vüqar Əli

# ADMİU – SƏNƏTƏ GEDƏN YOL BİZDƏN KEÇƏR

*Bütün yayım hüquqları Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti Publik Hüquqi Şəxsinin rektorluğuna məxsusdur.*

*ADMİU PHŞ zəruri hallarda "Tələbə bələdçi kitabçasına" müvafiq dəyişikliklər etmək hüququnu özündə saxlayır.*

# MÜNDƏRİCAT


1. Rektorun müraciəti..................................................5
2. Universitet haqqında.............................................7
2.1. Universitetin strukturu və tədris binaları...................7
2.2. Fakültələr haqqında................................................9
3. Boloniya prosesi...................................................21
4. Universitetə qəbul və təhsil müddəti......................23
4.1. Bakalavriat və magistratura səviyyələrinə qəbul....23
4.2. Doktoranturaya qəbul............................................27
4.3. Ömürboyu təhsil....................................................30
4.4. MBA proqramına qəbul.........................................33
4.5. Ödənişli kurslar.....................................................33
4.6. Əcnəbi və vətəndaşlığı olmayanlar üçün tələbə qəbulu.........................................................................34
4.7. SABAH qruplarına qəbul.......................................35
4.8. Təhsil müddəti.......................................................37
5. Tələbə biletlərinin verilməsi...................................40
6. Tələbələrin hüquq və vəzifələri..............................40
7. Akademik təqvim və tədris ili................................41
7.1. Akademik təqvim..................................................41
7.2. Tədris ili................................................................42
8. Tədris dili................................................................44
9. Tələbə həyatı..........................................................45
9.1. TGT .......................................................................45
9.2. THİK......................................................................46
9.3. TEYC.....................................................................47
9.4. Mentor Tələbə Proqramı.......................................47
10. Təcrübə................................................................48
11. Qiymətləndirmə və qayıbların son həddinin müəyyən edilməsi................................................48

11.1. Tələbənin qiymətləndirilməsi (cari)........................50
11.2. Təcrübənin qiymətləndirilməsi..............................50
11.3. Dərs saatlarına uyğun olaraq qayıbların son həddinin tənzimlənməsi.......................................52
11.4. Aralıq qiymətləndirmə (İmtahan sessiyaları)..........53
12. Təhsil tələbə krediti...............................................53
13. Diplom və əlaqəli məsələlər..................................55
13.1. Diplom.................................................................55
13.2. Diplomların itirilməsi və ya korlanması..................55
13.3. Diplom və əlavə tələbəyə hansı üstünlükləri verir?.............................................................................56
13.4. Etibarnamə...........................................................56
14. Milli və beynəlxalq işlə təmin. Dövlət proqramı......56
15. Universistetdən xaric olunma, köçürülmə, akademik məzuniyyət və tələbələr sırasına bərpa.................60
15.1. Xaric olunma........................................................60
15.2. Tələbələr tərəfindən təhsil müəssisəsinin, ixtisasın, təhsilalma formasının dəyişdirilməsi (köçürülmə)..61
15.3. Akademik məzuniyyət...........................................62
15.4. Tələbələr sırasına bərpa.......................................63
16. Beynəlxalq mübadilə proqramları..........................65
17. Kitabxana-informasiya mərkəzi və ondan istifadə qaydaları.............................................................66
18. Universitetlə əlaqə.................................................72
19. Hərbi xidmət məsələləri.........................................73
20. Rektora məktub....................................................74
21. Universitet istiqamətində yaxın ictimai nəqliyyat....74
22. ADMİU ətrafında önəmli müəssisələr....................76
23. Tələbələrin tibbi və ya digər təcili hallar yarandığı zaman əlaqə saxlaya biləcəyi nömrələr.................77
24. Abreviaturalar.......................................................78

# I. REKTORUN MÜRACİƏTİ:



**Dəyərli tələbələr!**

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini seçdiyiniz üçün təşəkkür edirəm, hər biriniz “Xoş gəlmişsiniz”! ADMİU ailəsinin artıq bir üzvü kimi sizi peşəkar həyata hazırlamaq üçün birgə irəli addımlayacağıq. Xüsusi qabiliyyət tələb edən ali təhsil müəssisələri arasında 100 yaşlı ADMİU unikal mövqeyə sahibdir. Ölkəmiz və univesitetimiz üçün önəmli missiyamız təkcə peşəkar şəxslər deyil, yeni nəsil insanını formalaşdırmaqdır.

Dünyanın üz-üzə qaldığı çoxsaylı iqlim, ekoloji və s. problemlərin çözülməsində incəsənətin özünəməxsus yeri vardır. Hazırda incəsənət təfəkkürünə hətta elmi araşdırmalarda, tədqiqatlarda yer verilir. Elm sahələrində inkişaf belə mədəni səviyyəsi yüksək cəmiyyətlərdə olur. Sənət dili universal dildir. Ölkəmizin, dünyanın sağlam bir gələcəyə varmasında ADMİU-nu seçən tələbələrin payı olacağına inanıram. Mədəniyyət və incəsənətə yer verilən toplumlarda sülh, qarşılıqlı anlaşma hökm sürür.

Əsasını Teatr sənəti və Audiovizual sənətlər fakültələri təşkil edən universitetimizdə mədəniyyət və incəsənət sahəsinə aid müxtəlif ixtisaslar üzrə kadr hazırlığı aparılır. Azərbaycan, rus və ingilis dillərində təklif etdiyimiz təhsil proqramları əmək bazarında tələb edilən müasir səriştələrin əldə edilməsinə yönəlib. Məzunlarımızın ölkəmizdə və onun xaricində qazandıqları çoxsaylı uğurları Universitetimizin potensialının, akademik keyfiyyətinin göstəricisidir.

Sizin şəxsi və peşəkar inkişafınızı təkmilləşdirmək, beynəlxalq təhsil təcrübələrindən yararlanmağınız üçün ADMİU-da beynəlxalq ikili diplom, mübadilə proqramları həyata keçirilir, beynəlxalq layihələrdə iştirak təklif edilir.

Sizin ölkəmiz və dünya miqyasında universitetimizdə qazandığınız bilik, bacarıq və səriştələrlə layiqli yer tutacağınıza əminəm.

İnanıram ki, ADMİU ailəsinin üzvü olmaqla mükəmməl təhsil və təcrübə qazanacaqsınız.

Ən xoş arzularla!

***Əməkdar incəsənət xadimi,***
***sənətşünaslıq elmləri doktoru,***
***professor Ceyran Mahmudova***

# II. UNİVERSİTET HAQQINDA

Əsası 1923-cü ildə yaradılmış Teatr məktəbi ilə qoyulan ADMİU-da ali təhsil pilləsinin hər üç səviyyəsi üzrə mütəxəssis hazırlığı aparılır. Tədris Azərbaycan, rus və ingilis dillərində aparılır. Müasir auditoriyalar, zəngin kitabxana, ixtisaslaşdırılmış tədris otaqları, rekvizit və avadanlıqların mövcudluğu, psixoloji və tibb yardım, iaşə xidmətinin təşkili, ödənişsiz internetdən istifadə Wi-Fi sistemi tələbələrin təhsil almaqlarına yaradılmış şəraitdir. Tələbə həyatının həm akademik, həm sosial tərəflərinin inkişafı üçün universitetdə müxtəlif cəmiyyətlər və klublar fəaliyyət göstərir. Tərəfdaşlıq etdiyimiz yerli və xarici universitetlər ilə mübadilə proqramları mövcuddur, eyni zamanda ikili diplom proqramları vardır. Əməkdaşlıq etdiyimiz çoxsaylı müəssisələrdə tələbələr həm təcrübə keçir, həm də məzun olduqda işlə təmin olunmaq imkanları vardır.

Tələbələrimiz məzun olduqdan sonra ADMİU Məzunlar Asossiyasıyasına könüllü olaraq üzv kimi universitetlə əməkdaşlıq edirlər.

## 2.1. Universitetin strukturu və tədris binaları

Universitetə 2018-ci ildən rektor, professor, əməkdar incəsənət xadimi Ceyran Mahmudova rəhbərlik edir. Əsas qanunverici orqan universitetin kollegial Elmi Şurasıdır. Universitetin daxilində prorektorluqlar, dekanlıqlar, kafedralar, şöbələr və s. mövcuddur.

Universitetdə fəaliyyət göstərən 5 fakültə, 21 kafedra və SABAH Mərkəzi tələbələrin inkişaf etdirilməsi üçün maddi-texniki və tədris-metodiki bazaya malikdir. Bunlardan əlavə,

**“Səda”** ***Tədris teatrı,*** televiziya və kino tədris studiyası, montaj otağı, səhnəli dərs otaqları, Kitabxana-informasiya Mərkəzi, Ömürboyu təhsil, karyera və məzunlarla iş bölməsi, mətbəə, yeməkxanalar, qarderob, tibb məntəqəsi və s. tələbələrin ixtiyarındadır.

**Tələbələrin nəzərinə!**

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektorluğu əsas binada - İnşaatçılar prospekti 39 ünvanında yerləşir. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti 3 tədris binasında fəaliyyət göstərir.

Universitetin tədris binaları:

- **1 saylı tədris binası I korpus** İnşaatçılar prospekti 39 ünvanında;
- **1 saylı tədris binası II korpus** Əbdürrəhim bəy Haqverdiyev 11 ünvanında;
- **2 saylı tədris binası** Həsən bəy Zərdabi 39a (Musabəyov korpusu) ünvanında
- **“Səda” Tədris teatrı** Yasamal rayonu, Akademik Lətif İmanov 6 ünvanında yerləşir**.**

**1 saylı tədris binasının I korpusunda** *Rektorluq, strukturundakı şöbə və bölmələrilə birlikdə Tədris işləri üzrə, Elm və yaradıcılıq işləri üzrə və Beynəlxalq əlaqələr üzrə prorektorluqlar, Keyfiyyət təminatı və strateji planlama departamenti, İnformasiya-kommunikasiya texnologiyaları və texniki xidmət şöbəsi, Təsərrüfat şöbəsi,* 2 fakültə - ***Teatr sənəti*** və ***Audiovizual sənətlər*** fakültəsi, ***SABAH Mərkəzi***, *Kitabxana və informasiya mərkəzi, tibb məntəqəsi, yeməkxana – Art - Kafe, Televiziya və kino tədris studiyası, qarderob,*

*montaj otağı, Böyük və Kiçik səhnə, Vernisaj salonu, Heydər Əliyev Mərkəzi, psixoloq* fəaliyyət göstərir.

Rektorluq, Tədris işləri üzrə, Elm və yaradıcılıq işləri üzrə və Beynəlxalq əlaqələr üzrə prorektorluqlar və psixoloq 2-ci mərtəbədə,

**Böyük səhnə** 4-cü mərtəbədə,

Keyfiyyət təminatı və strateji planlama departamenti, İnformasiya Kommunikasiya Texnologiyaları və texniki xidmət şöbəsi 3-cü mərtəbədə,

Kitabxana və informasiya mərkəzi, Tibb məntəqəsi, yeməkxana – **Art - Kafe**, qarderob, Vernisaj salonu və Heydər Əliyev Mərkəzi 1-ci mərtəbədə,

Televiziya və kino tədris studiyası, montaj otağı, **Kiçik səhnə** 0-cı mərtəbədə fəaliyyət göstərir.

**1 saylı tədris binasının II korpusunda *Rəssamlıq fakültəsi***, *Ümumi şöbə, Mühasibat uçotu və hesabat şöbəsi, İnsan resursları şöbəsi* fəaliyyət göstərir.

Ümumi şöbə, Mühasibat uçotu və hesabat şöbəsi, *İnsan resursları şöbəsi* 1-ci mərtəbədə yerləşir.

**2 saylı tədris binasında** 2 fakültə - ***Kulturologiya fakültəsi***, ***Musiqi sənəti fakültəsi***, *Kitabxana və informasiya mərkəzi, Arxiv şöbəsi, Mülki Müdafiə Qərargahı, Tələbə Həmkarlar İttifaqı Komitəsi* və yeməkxana fəaliyyət göstərir. *Kitabxana və informasiya mərkəzi, Arxiv şöbəsi və yeməkxana 1-ci mərtəbədə yerləşir.*

## 2.2. Fakültələr haqqında

Fakültələrin işi müvafiq dekanlıqlar və fakültə elmi şuraları tərəfindən təmzimlənir. Dekanlıqlara seçki yolu ilə seçilmiş **dekanlar rəhbərlik edir.** Dekanlıqda fəaliyyət

göstərən **tyutorlar** tələbələrə tədrislə bağlı, fərdi planın tərtib edilməsi və s. akademik məsləhət verirlər.




**Teatr sənəti fakültəsinin dekanı Kəmalə Mehdiyeva**

***Teatr sənəti fakültəsi*** 1 saylı tədris binasının I korpusunda 4-cü mərtəbədə yerləşir. Fakültədə Aktyor sənəti, Rejissorluq, Sənətşünaslıq (Teatrşünaslıq) ixtisasları üzrə bakalavriat, magistratura və doktorantura səviyyələrində mütəxəssislər hazırlanır.

Dekanlıq və 5 kafedra fəaliyyət göstərir:

1. Dram teatrı və kino aktyoru kafedrası – 4-cü mərtəbədə;
2. Musiqili teatr aktyoru kafedrası – 4-cü mərtəbədə;
3. Dram rejissoru və səhnə plastikası kafedrası – 2-ci mərtəbədə;
4. Səhnə danışığı kafedrası – 4-cü mərtəbədə;
5. Teatrşünaslıq kafedrası – 1-ci mərtəbədə yerləşir.

Teatr sənəti fakültəsi üzrə **rekvizitlərdən** istifadə qaydası.

Rekvizitlər Universitetin 1-ci binasının ilk mərtəbəsindəki Qarderobda yerləşdirilmişdir.

**Rekvizitlərdən istifadə qaydaları aşagıdakı göstərilən kimidir**:

1) İmtahan tamaşalarında lazım olan kostyum və rekvizitlər kurs müəllimlərinin məsləhəti ilə seçilir və tələbə şəxsiyyət vəsiqəsini, lazmımi rekvizitlər müəllimin imzası ilə geyim siyahısı qeyd olunan təqdim etməklə rekvizitləri əldə edir.

2) Qarderobda olmayan rekvizitlər dekanlıq, müəllimlərin və tələbələrin şəxsi təşəbbüsü ilə təşkil olunur.

3) Rekvizitlər geri təhvil verildikdən sonra tələbə bileti tələbəyə geri qaytarılır.

- Bakalavriat səviyyəsindəki ixtisaslarla bağlı əlavə məlumat üçün keçid: https://admiu.edu.az/teatr-s%C9%99n%C9%99ti-fakult%C9%99si-uzr%C9%99-ixtisaslar-bakalavr/
- Magistratura səviyyəsindəki ixtisaslarla bağlı əlavə məlumat üçün keçid: https://admiu.edu.az/teatr-s%C9%99n%C9%99ti-fakult%C9%99si-uzr%C9%99-ixtisaslar-magistr/

Fakültə ilə əlaqə saxlamaq üçün:
Əlaqə nömrəsi – (+994 12) 599 00 54 > 112
Elektron poçt ünvanı – teatr.sanati@admiu.edu.az



**Audiovizual sənətlər fakültəsinin dekanı**
**Gülnarə Hüseynova**

• ***Audiovizual sənətlər*** fakültəsi universitetin 1 saylı tədris binasının 3-cü mərtəbəsində yerləşir. Fakültədə Rejissorluq (sahələr üzrə), Operator sənəti, Sənətşünaslıq (Kinoşünaslıq), Bədii yaradıcılıq və ekran dramaturgiyası (ssenarist) və s. ixtisasları üzrə mütəxəssislər hazırlanır.

Fakültədə 3 kafedra fəaliyyət göstərir:

1. Kino-televiziya sənətləri kafedrası – 3-cü mərtəbədə;
2. Kinoşünaslıq və ekran dramaturgiya kafedrası – 3-cü mərtəbədə;
3. Ədəbiyyat və dillər kafedrası – 2 saylı tədris binasının 1-ci mərtəbəsində yerləşir.

Fakültədə ixtisaslaşdırlımış tədris otaqları - montaj, çəkiliş otaqları vardır.

Çəkiliş üçün istifadə olunacaq avadanlıqlar tədris prosesində tələbələrin istifadəsinə verilir. Həmin avadanlıqların siyahısı və istifadəsinə göstərişlər "Çəkiliş avadanlıqlarının istifadəyə verilməsi qaydaları" ilə müəyyən olunur.

- "Çəkiliş avadanlıqlarının istifadəyə verilməsi qaydaları" üçün keçid: https://admiu.edu.az/huquqi-s%C9%99n%C9%99dl%C9%99r/
- Bakalavriat səviyyəsindəki ixtisaslarla bağlı əlavə məlumat üçün keçid: https://admiu.edu.az/audiovizual-s%C9%99n%C9%99tl%C9%99r-fakult%C9%99si-uzr%C9%99-ixtisaslar-bakalavr/
- Magistratura səviyyəsindəki ixtisaslar (ixtisaslaşmalar) barədə əlavə məlumat üçün keçid: https://admiu.edu.az/audiovizual-s%C9%99n%C9%99tl%C9%99r-fakult%C9%99si-uzr%C9%99-ixtisaslar-magistr/

Fakültə ilə əlaqə saxlamaq üçün:
Əlaqə nömrəsi – (+994 12) 599 00 54 > 114
Elektron poçt ünvanı – audiovizual.sanatlar@admiu.edu.az



**Rəssamlıq fakültəsinin dekanı Səyalı Quliyeva**

- ***Rəssamlıq fakültəsi*** universitetin 1 saylı tədris binasının II korpusunun 2-ci mərtəbəsində yerləşir. Dekanlıq və 3 kafedra fəaliyyət göstərir. Sənətşünaslıq (Təsviri sənətin

tarixi və nəzəriyyəsi), Təsviri incəsənət müəllimliyi, Dizayn (İnteryer dizaynı, Qrafik dizayn, Geyim dizaynı), Qrafika (Kitab tərtibatı və illustrasiyası, Animasiya və kompüter qrafikası), Rəngkarlıq (Dəzgah rəngkarlığı, kino vəteleviziya rəngkarlığı), Dekorativ-tətbiqi sənət (Bədii xalça, Bədii toxuculuq) ixtisasları üzrə mütəxəssislər hazırlayır.

1. Dizayn və dekorativ tətbiqi sənət kafedrası – 2-ci mərtəbədə;
2. Təsviri sənət kafedrası – 3-cü mərtəbədə;
3. Təsviri sənət tarixi və nəzəriyyəsi kafedrası – 1-ci mərtəbədə yerləşir.

- Dekorativ-tətbiqi sənət (Bədii toxuculuq və Bədii xalça), o cümlədən Dizayn ixtisasının Geyim dizaynı ixtisaslaşması üzrə ixtisas dərsləri universitetin Həsən bəy Zərdabi 39a ünvanında yerləşən 2 saylı tədris binasında 2-ci mərtəbədə təşkil olunur.

## Rekvizitlərdən istifadə

**1 saylı binanın II korpusu**

Rəssamlıq fakültəsinin Təsviri incəsənət müəllimliyi, Qrafika, Rəngkarlıq, Dizayn və Dekorativ-tətbiqi sənət ixtisaslarında təhsil alan tələbələr ixtisas dərslərini keçərkən onlara lazım olacaq rekvizitləri necə əldə edə bilərlər?

**Tələbələr üçün ixtisas dərslərini keçərkən onlara lazım olacaq rekvizitlərdən istifadə qaydaları aşagıdakı göstərilən kimidir**:

1) Tələbə bileti üzərilərində olmalıdır.

2) Tələbə Rəssamlıq fakültəsinin nəzdində olan Art Studiyada (2 saylı bina) yerləşən fondun mühafizəçisinə yaxınlaşıb, tələbə biletini təqdim etməklə proqrama uyğun

dərsdə istifadə edə biləcək rekvizitləri götürə bilər. Bu zaman tələbə bileti təhvil verilir, rekvizit qaytarılandan sonra tələbə bileti geri götürülür.

3) Rəngkarlıq (Dəzgah rəngkarlığı) və Qrafika (Dəzgah qrafikası) ixtisaslarında təhsil alan tələbələr Art Studiyada yerləşdirilən dəzgahlardan istifadə edə bilərlər.

4) “Rekvizitlərdən istifadə qaydası” ilə tanış olmalıdır.

**1 saylı tədris binası II korpusu (Musabəyov korpusu)**

**Dekorativ-tətbiqi sənət ixtisasına qəbul olunan I təhsil ili tələbələri üçün ixtisas dərslərini keçərkən onlara lazım olacaq rekvizitlərdən istifadə qaydaları aşagıdakı göstərilən kimidir**:

1) Tələbə bileti üzərilərində olmalıdır.

2) Hər hansısa bir rekviziti istifadə etmək üçün III tədris binasına təhkim olunmuş Dizayn və dekorativ-tətbiqi sənət kafedrasının tədris ustalarına yaxınlaşıb,tələbə biletini təqdim etməklə lazım olan vəsaitləri götürə bilərlər.

3) Rekvizitlər geri təhvil verildikdən sonra tələbə bileti tələbəyə geri qaytarılır

4) “Rekvizitlərdən istifadə qaydası” ilə tanış olmalıdır

- Bakalavriat səviyyəsindəki ixtisaslarla bağlı əlavə məlumat üçün keçid:

https://admiu.edu.az/r%C9%99ssamliq-fakult%C9%99si-uzr%C9%99-ixtisaslar-bakalavr/

- Magistratura səviyyəsindəki ixtisaslarla bağlı əlavə məlumat üçün keçid:

https://admiu.edu.az/r%C9%99ssamliq-fakult%C9%99si-uzr%C9%99-ixtisaslar-magistr/

Fakültə ilə əlaqə saxlamaq üçün:

Əlaqə nömrəsi – (+994 12) 599 00 54 > 113
Elektron poçt ünvanı – rassamlig@admiu.edu.az



**Kulturologiya fakültəsinin dekanı Səyavuş Məhişov**

- ***Kulturologiya fakültəsi*** Həsən bəy Zərdabi 39a ünvanında yerləşən 2 saylı tədris binasının 3-cü mərtəbəsində yerləşir. Kitabxanaçılıq və informasiya fəaliyyəti, Sosial iş, Sosiologiya, Muzey, arxiv işi və abidələrin qorunması, Turizm işinin təşkili, Turizm bələdçiliyi və s. ixtisasları üzrə mütəxəssis hazırlığı aparılır.

4 kafedra fəaliyyət göstərir:

1. Sosial - mədəni fəaliyyət kafedrası – 3-cü mərtəbədə;
2. Muzeyşünaslıq və Turizm kafedrası – 3-cü mərtəbədə;
3. Sosial - siyasi elmlər kafedrası – 3-cü mərtəbədə yerləşir.

- Bakalavriat səviyyəsindəki ixtisaslarla bağlı əlavə məlumat üçün keçid:

https://admiu.edu.az/kulturologiya-fakult%C9%99si-uzr%C9%99-ixtisaslar-bakalavr/

• Magistratura səviyyəsindəki ixtisaslarla bağlı əlavə məlumat üçün keçid:

https://admiu.edu.az/kulturologiya-fakult%C9%99si-uzr%C9%99-ixtisaslar-magistr/

Fakültə ilə əlaqə saxlamaq üçün:

Əlaqə nömrəsi – (+994 12) 432-34-39

Elektron poçt ünvanı – kulturologiya@admiu.edu.az



**Musiqi sənəti fakültəsinin dekanı İradə Xəlilova**

• ***Musiqi sənəti fakültəsi*** Həsən bəy Zərdabi 39a ünvanında yerləşən 2 saylı tədris binasının 5-ci mərtəbəsində yerləşir. Fakültədə 6 kafedra fəaliyyət göstərir. Solo oxuma, Estrada müğənnisi, Aşıq sənəti, Xalq çalğı alətləri ifaçılığı, İnstrumental ifaçılıq, Musiqişünaslıq və s. ixtisasları üzrə mütəxəssis hazırılığı aparılır.

1) Muğam sənəti kafedrası – 5-ci mərtəbədə;
2) Estrada sənəti kafedrası – 4-cü mərtəbədə;
3) Aşıq sənəti kafedrası – 4-cü mərtəbədə;

4) Xalq çalğı alətləri ifaçılığı kafedrası – 5-ci mərtəbədə;

5) İnstrumental ifaçılıq kafedrası – 4-cü mərtəbədə;

6) Musiqi tarixi və nəzəriyyəsi kafedrası – 5-ci mərtəbədə yerləşir.

Tələbə musiqi alətləti ilə təchiz olumuş ixtisaslaşdırlımış otaqlarda dərs və dərsdənkanar çalışmaları üçün istifadə edə bilər.

Fakültə dekanlığına yaxınlaşaraq müvafiq boş otaqlar barədə məlumat əldə etmək olar.

- Bakalavriat səviyyəsindəki ixtisaslarla bağlı əlavə məlumat üçün keçid:

https://admiu.edu.az/musiqi-s%C9%99n%C9%99ti-fakult%C9%99si-uzr%C9%99-ixtisaslar-bakalavr/

- Magistratura səviyyəsindəki ixtisaslarla bağlı əlavə məlumat üçün keçid:

https://admiu.edu.az/musiqi-s%C9%99n%C9%99ti-fakult%C9%99si-uzr%C9%99-ixtisaslar-magistr/

Fakültə ilə əlaqə saxlamaq üçün:

Əlaqə nömrəsi – (+994 12) 432-85-78

Elektron poçt ünvanı – musigi.sanati@admiu.edu.az

- Universitet haqqında ətraflı məlumat üçün keçid:

https://www.admiu.edu.az



**SABAH Mərkəzinin rəhbəri Nofəl Vəliyev**

***SABAH Mərkəzi*** universitetin 1 saylı tədris binasının 2-ci mərtəbəsində yerləşir.

"***SABAH" nədir? SABAH - SAVADLI, BACARIQLI və HAZIRLIQLI adlı təhsil layihəsidir.***

Ölkəmizdə 2014-2015-ci tədris ilindən etibarən müasir tələblərə uyğun kadr hazırlığının təmin edilməsi və ali təhsil sistemində yeni mühitin yaradılması məqsədilə Elm və Təhsil Nazirliyinin tabeliyindəki ali təhsil müəssisələrində (ADİU, BDU, AzTU, AzMİU, ADNSU, BMA, ADRA, BMU, ADU, ADPU, ADBTİA) SABAH qrupları layihəsinə - Savadlı, Bacarıqlı və Hazırlıqlı tələbələrdən ibarət qrupların yaradılmasına start verilmişdir. Layihənin əsas məqsədi ali təhsil sahəsində davamlı, uzunmüddətli, hərtərəfli və əhatəli keyfiyyət dəyişikliklərinin həyata keçirilməsi üçün zəruri mühitin yaradılması, Azərbaycan gənclərinin fərdi və peşəkar inkişafına dəstək olmaq, təcrübə və tələbə mübadilələrinin

genişləndirilməsi, əmək bazarının tələblərinə uyğun olaraq savadlı, bacarıqlı və hazırlıqlı mütəxəssislərin yetişdirilməsidir.

ADMİU-da SABAH Mərkəzi 2015-ci ildən etibarən bakalavriat səviyyəsində *Aktyor sənəti* və *Rejissorluq* ixtisasları üzrə fəaliyyətə başlayıb. SABAH Mərkəzində təhsil alan tələbələr xüsusi imtiyazlara malikdir:

İlk olaraq, SABAH tələbələrinə əlavə təqaüdlərin verilməsidir. Əlavə təqaüd SABAH qruplarına qəbul olunmuş bütün tələbələrə, istər dövlət sifarişli, istərsə də ödənişli əsaslarla təhsil alan tələbələrə ödənilir;

ikincisi, SABAH qruplarında təhsilin tələbələrə verdiyi bir üstünlük də **rayon qeydiyyatında olan az təminatlı tələbələrin yataqxana ilə təmin olunmasıdır.**

SABAH Mərkəzi tərəfindən tələbələrin ölkədaxili qastrol səfərləri, hazırladıqları tamaşaların professional teatr səhnəsində nümayişi, teatr və kino festivallarında, müxtəlif layihələrdə iştirakı, bir sözlə, auditoriyadakənar dərslərdə də inkişafı təmin olunur.

SABAH qruplarına qəbul barədə ətraflı məlumat IV fəslin 4.7-ci bölməsində verilmişdir.

SABAH qrupları layihəsi ilə bağlı digər məlumat üçün: https://www.sabah.edu.az/

ADMİU-nun SABAH Mərkəzi ilə bağlı məlumat üçün: https://admiu.edu.az/sabah/

SABAH Mərkəzi ilə əlaqə saxlamaq üçün:

Əlaqə nömrəsi – (+994 12) 599 00 54 > 161

Elektron poçt ünvanı – sabah@admiu.edu.az

# III. BOLONİYA PROSESİ

## 3.1. Boloniya prosesi nədir?

1999-cu il iyunun 19-da İtaliyanın Boloniya şəhərində Avropanın 29 ölkəsinin təhsil nazirlərinin iştirak etdiyi xüsusi konfransda **“Avropa Ali təhsil Məkanı” bəyannaməsi və ya “Boloniya Bəyannaməsi”** qəbul olundu.

Boloniya bəyannaməsi üzv dövlətlərin hamısı üçün tətbiqi zəruri olan aşağıdakı prinsiplərin həyata keçirilməsini nəzərdə tutur:

- İkipilləli ali təhsilə keçid;
- Kredit sisteminin tətbiqi;
- Təhsilin keyfiyyətinə nəzarətin gücləndirilməsi;
- Tələbə və müəllim mobilliyinin genişləndirilməsi;
- İxtisasların və diplomların qarşılıqlı tanınması;
- Diploma əlavələrin Avropa ölkələrinin ali təhsil haqqında müvafiq sənədlərinə uyğunlaşdırılması;
- Məzunların işlə təminatına nail olunması;
- Avropa təhsil sisteminin cəlbediciliyinin təmin edilməsi.

2001-ci ildən etibarən Azərbaycan Respublikasının Avropa Şurasına üzv olması ölkəmizin Avropa məkanına inteqrasiyasını sürətləndirmişdir.

Azərbaycan da Boloniya prosesinə qoşulmaq üçün 2004-cü ildən ilk addımlarını atmağa başlamışdır. **2005-ci il may ayının 19-da** Norveçin Berqen şəhərində keçirilən konfransda **Azərbaycan Boloniya prosesinin həqiqi üzvü seçilmişdir**. Azərbaycanın bu prosesə qoşulmaqda əsas məqsədi Avropa təhsil məkanına inteqrasiya olunmaqla kredit sisteminə keçməsinin, müasir attestasiya və akkreditasiya sisteminin qurulmasının təmin olunmasıdır.

Azərbaycanın Boloniya prosesinə qoşulmasının aşağıdakı kimi üstünlükləri vardır:

- Azərbaycanın ali təhsilinin Avropa təhsil məkanına inteqrasiyası;
- Tələbə və müəllim kontingentinin vahid Avropa ali təhsil məkanına qoşulan ölkələr arasında mobilliyinin asanlaşdırılması (eyni zamanda bir ölkənin ali təhsil müəssisələri arasında);
- Tələbə və müəllim kontingentinin vahid Avropa ali təhsil məkanına qoşulan ölkələr arasında məşğulluq (işədüzəlmə) prosesinin asanlaşdırılması;
- Diploma əlavənin vahid modelinin yaradılması ilə məzunların əmək bazarında fəaliyyətə başlamasını asanlaşdırılması;
- Uzunmüddətli təhsil almaq imkanlarının yaradılması (ali təhsil müəssisələrindən akademik uğursuzluğa görə xaric olunmanın aradan qaldırılması);
- Hər bir tələbəyə fərdi yanaşma;
- Hər bir müəllimin tədris etdiyi kursa (fənnə) sərbəst yanaşması;
- Tələbələrə öz təhsil prosesini seçməkdə sərbəstliyin verilməsi (məs., müəllim və fənn seçimində sərbəstliyi);
- Yay semestri imkanlarından istifadə;
- Tədrisi vaxtından əvvəl bitirmə imkanları (bakalavriat səviyyəsində 3.5 il, magistratura səviyyəsində 1.5 il);
- Diplomların ekvivalentliyi və qarşılıqlı tanınması imkanları.

ADMİU-da təhsil almaq istəyənlər üçün Boloniya prinsipləri əsasında tədrisin bütün imkanlarından yararlanma şəraiti vardır.

# IV. UNİVERSİTETƏ QƏBUL VƏ TƏHSİL MÜDDƏTİ

## 4.1. Bakalavriat və magistratura səviyyələrinə qəbul

Universitetdə bakalavriat, magistratura və doktoranturaya qəbul mövcud qanunvericiliyə uyğun aparılır.

**4.1.1.** Bakalavriat səviyyəsi üzrə Sənətşünaslıq (kinoşünaslıq, teatrşünaslıq, təsviri sənət tarixi və nəzəriyyəsi), Bədii yaradıcılıq və ekran dramaturgiyası, Muzey, arxiv işi və abidələrin qorunması, Sosial iş, Kitabxanaçılıq və informasiya fəaliyyəti ixtisaslarına **III qrup**;

Sosiologiya, Turizm bələdçiliyi, Turizm işinin təşkili ixtisaslarına **II qrup**;

Aktyor sənəti, Rejissorluq, Təsviri incəsənət müəllimliyi, Dekorativ-tətbiqi sənət (bədii xalça, bədii toxuculuq), Dizayn (geyim dizaynı, interyer dizaynı, sənaye dizaynı, qrafik dizayn, animasiya və kompüter qrafikası), Qrafika (kitab tərtibatı və illüstrasiyası, animasiya və kompüter qrafikası, dəzgah), Rəngkarlıq (Kino və televiziya rəssamı, dəzgah rəngkarlığı, teatr dekorasiya rəngkarlığı), Operator sənəti, Musiqi müəllimliyi (fortepiano, violin (skripka), viola (alt), gitara, klarnet, saksafon, fleyta, zərb alətləri, tar, kamança, saz, qanun, nağara, balaban, qarmon, vokal), İnstrumental ifaçılıq (Klassik musiqi alətləri (fortepiano, violin (skripka), viola (alt), gitara, klarnet, saksafon, zərb alətləri), İnstrumental ifaçılıq (Xalq çalğı alətləri ifaçılığı (tar, kamança, saz, qanun, nağara, balaban, qarmon)) (Klassik musiqi alətləri (fortepiiano, violin, (skripka), viola (alt), gitara, klarnet, saksafon, zərb alətləri)), Musiqişünaslıq, Populyar musiqi və caz ifaçılığı (Estrada

sənəti), Vokal sənəti (xanəndə) ixtisaslarında isə **V qrup**la qəbul mümkündür.

V qrupla müraciət edən hər kəs **mütləq** qabiliyyət imtahanı verməlidir. Beynəlxalq nailiyyəti olan şəxslər "Təhsil haqqında" Qanunun (https://e-qanun.az/framework/18343) 26.5-ci bəndinə əsasən qabiliyyət imtahanından azaddırlar.

Aktyor sənəti və Operator sənəti ixtisaslarında **qiyabi təhsil** almaq mümkündür. Bunun üçün namizədin müvafiq ixtisas üzrə əmək kitabçasından çıxarış təqdim etməklə Aktyor sənəti sahəsində 5 ildən az olmayaraq, Operator sənəti sahəsi üzrə isə 3 ildən az olmayaraq əmək fəaliyyəti olmalıdır.

Qəbul imtahanlarının ***qabiliyyət mərhələsi*** rejissorluq, aktyor sənəti ixtisasları üçün ADMİU-nun İnşaatçılar prospekti 39 ünvanında yerləşən əsas binasında baş tutur.

Musiqi və rəssamlıq sahəsinə aid ixtisaslara qəbul Dövlət İmtahan Mərkəzinin (DİM) müəyyən etdiyi ünvanlarda keçirilir.

Bakalavriat səviyyəsinə qəbulun şərtləri, proqramı və digər məsələlərlə bağlı məlumatları **"Abituriyent" jurnalından** əldə etmək mümkündür. Dövlət İmtahan Mərkəzinin mətbuat orqanı olan "Abituriyent" jurnalı abituriyentlər, yuxarı sinif şagirdləri və təhsil işçiləri üçün elmi-metodiki və informatik materialların çap olunduğu rəsmi müntəzəm nəşrdir.

**4.1.2.** Magistratura səviyyəsində xüsusi qabiliyyət tələb edən və nəzəri ixtisaslar (ixtisaslaşmalar) müvafiq bakalavriat səviyyəsinə uyğun aparılır. MBA proqramına qəbul isə istənilən ixtisas üzrə bakalavriat dərəcəsi ilə mümkündür. Nəzəri ixtisaslar və MBA proqramına qəbul DİM imtahanları əsasında aparılır. Xüsusi qabiliyyət tələb edən ixtisaslara (ixtisaslaşmalara) qəbul magistratura səviyyəsində də

qabiliyyət imtahanları ilə aparılır. Nəzəri ixtisaslar (ixtisaslaşmalar) və MBA proqramının müddəti 2 il, Xüsusi qabiliyyət tələb edən ixtisaslarda (ixtisaslaşmalarda) 1.5 ildir. Həmin ixtisas və ixtisaslaşmaların siyahısı ***4.7-ci bölmədə*** göstərilmişdir.

Nəzəri ixtisaslar (ixtisaslaşmalar) üzrə təhsil almış tələbələr təhsillərini doktorantura üzrə davam etdirə bilərlər, ***MBA proqramı*** *və* ***xüsusi qabiliyyət tələb edən ixtisaslarda (ixtisaslaşmalarda)*** *təhsil almış tələbələr isə doktoranturada* ***təhsillərini davam etdirə bilməzlər.***

Magistratura səviyyəsinə qəbul elanı mərhələsindən ali təhsil müəssisələrində boş qalan yerlərin nəticələrinin açıqlanması mərhələsinə qədər bütün məsələlərlə bağlı ətraflı məlumat əldə etmək üçün "**Magistr"** jurnalının müxtəlif nəşrlərini əldə etmək mümkündür.

### 4.1.3. Qeydiyyat prosesi

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə qəbul olmaq üçün seçim etmiş abituriyentlər və tələbələr attestasiya və xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə həm də qabiliyyət imtahanlarını verdikdən sonra DİM-in təyin etdiyi tarixlərdə **(**adətən **10 gün müddətində)** qeydiyyatdan keçməlidirlər. Abituriyentin və ya tələbənin bu müddətdə təhsil müəssisəsinə qeydiyyatdan keçməməsi onun yerləşdirildiyi ixtisas üzrə təhsil almaqdan imtina etməsi kimi qiymətləndirilir. Bu abituriyentlər boş qalan yerlər üzrə keçirilən müsabiqəyə buraxılmırlar.

Həm bakalavriat, həm də magistratura səviyyələrində qeydiyyat eyni qaydada aparılır. Şəxslər qeydiyyatdan keçə bilmək üçün https://portal.edu.az üzərindən tələb olunan bütün sənədləri yükləməli, bütün məlumatları xanalar üzrə

yerləşdirməli və sonda təsdiq xanasını təsdiqləməlidirlər. **"Təsdiqlə"** xanasını təsdiqləməyən şəxslərin qeydiyyatı **tamamlanmır.** Qeydiyyat səhifəsini ***mobil cihazlardan*** deyil, ***kompüterdən*** açmaq tövsiyə edilir. Şəxslər portaldan **öz ad, soyad, finkodları** və **elektron poçt** ünvanları ilə qeydiyyatdan keçməlidirlər. İstifadə edilən elektron poçt ünvanları aktiv olmalıdır.

Qeydiyyatdan keçməkdə çətinlik çəkənlər üçün universitet əsas binada Kitabxana-informasiya Mərkəzində Qəbul Komissiyası yaradır.

Qeydiyyatla bağlı əlavə məlumat universitetin saytında və sosial şəbəkə hesablarında yerləşdirilir:

https://admiu.edu.az
https://www.linkedin.com/company/admiu/
https://www.facebook.com/admiuresmi?mibextid=ZbWKwL
https://www.instagram.com/admiuresmi?igsh=dmt5aW1pb2V0d2tm

**Qeydiyyat üçün tələb olunan sənədlər**

Qeydiyyatdan keçmək üçün lazım olan sənədlər universitetin **"admiu.edu.az"** saytında və https://portal.edu.az ünvanında öz əksini tapmışdır. Qeydiyyat Universitetin **1 saylı tədris binasında** yerləşən **Kitabxana və informasiya mərkəzində** *(I mərtəbə)* keçirilir. Sənəd qəbulunun müddəti DİM tərəfindən müəyyən edilir.

***Ödənişli qəbul olunduğu halda dövlət hesabına təhsil almaq hüququ yaranan tələbələr:***

- validеynlərini itirmiş və validеyn himayəsindən məhrum olmuş uşaqlar, habelə onların arasından olanlar;
- şəhid ailəsinin üzvləri;

- Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə "Müharibə veteranı" adı almışlar;

- orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə, habelə 18 yaşınadək əlilliyi müəyyən edilmişlər;

- Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqları;

- "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq məcburi köçkün statusu olan Azərbaycan Respublikasının vətəndaşları olanlar.

## 4.2. Doktoranturaya qəbul

Hər il aprel ayında ***Doktorantura*** üçün https://www.admiu.edu.az/ saytında və rəsmi dövlət qəzetində elan verildikdən sonra bütün namizədlər https://portal.edu.az saytından qeydiyyatdan keçirlər. Bundan sonra onların sənədlərinin uyğunluğu yoxlanılır və problem yaranarsa https://portal.edu.az üzərindən namizədlə əlaqə saxlanılır. Növbəti mərhələdə qəbul komissiyasından uğurla keçən namizədlər daha sonra isə https://dim.gov.az/ ünvanından Xarici dil imtahanı (ingilis, fransız və alman) üçün ödəniş edib qeydiyyatdan keçməlidirlər. Qeydiyyat mərhələsi bitdikdən sonra namizədlər hər ilin iyun ayında ilk olaraq Xarici dil imtahanda iştirak edirlər. 25 bal keçid olmaqla 30 bal toplayan namizədlər 5 il müddətində fəlsəfə doktorluğu imtahanından

azad olunurlar. Bəzi hallarda namizədlərə Xarici dil imtahanından azad olunma hüququ verilir.

### 4.2.1. Xarici dil imtahanından azad olunma qaydaları

Doktorantura və dissertanturaya qəbul zamanı xarici dil üzrə qəbul imtahanı Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi (Mərkəz) tərəfindən keçirilir. Xarici dil üzrə qüvvədə olan və CEFR-in B2 və ya daha yüksək səviyyəsinə müvafiq beynəlxalq dil sertifikatına (IELTS, TOEFL, TestDaF, DELF, DALF, STANAG) malik olanlar xarici dil üzrə qəbul imtahanından azad olunurlar. Qəbul zamanı Beynəlxalq dil sertifikatının imtahan nəticələrinin keçid balına ekvivalentliyi AMEA və Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə razılaşdırılmaqla, Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyənləşdirilir.

Xarici dil üzrə qüvvədə olan və CEFR-in B2 və ya daha yüksək səviyyəsinə müvafiq beynəlxalq dil sertifikatına (IELTS, TOEFL, Cambridge English Qualifications, TestDaF, DELF, DALF, STANAG) malik olanlar sertifikatın hər iki üzünün surətini JPG faylda (hər faylın ölcüsü 300 kb-dan çox olmamaqla) qeydiyyat səhifəsində yükləməlidirlər. Beynəlxalq dil sertifikatının imtahan nəticələrinin keçid balına ekvivalentliyi AMEA və Təhsil Nazirliyi ilə razılaşdırılmaqla, DİM tərəfindən müəyyənləşdirilir. Təqdim edilmiş sertifikatların həqiqiliyi və qüvvədə olması yoxlanıldıqdan sonra namizədlərə məlumat verilir, sonra isə namizəd öz ərizəsini təsdiq edir və xarici dil üzrə qəbul imtahanından azad olunurlar. Xarici dil üzrə beynəlxalq sertifikatlar 2 il müddətində qüvvədədir. Xarici dil üzrə imtahan ingilis, alman və fransız dilləri üzrə keçirilir.

**4.2.2.** Xarici dil imtahanından sonra sentyabr ayında “Fəlsəfə” və “İxtisas” imtahanları keçirilir. **Diqqət!** “Xarici dil”

imtahanından keçməyən şəxslər fəlsəfə imtahanına, fəlsəfə imtahanından keçməyənlər isə ixtisas üzrə imtahanlara buraxılmırlar.

"Fəlsəfə" imtahanı sentyabr ayının ilk 10 günü ərzində Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən edilən müəssisələrdə təşkil olunur. İmtahan nəticəsi "*məqbul*" və ya "*qeyri-məqbul*" olaraq qiymətləndirilir. Namizədlər imtahanın proqramını və suallarını ADMİU-dan və ya imtahanın keçiriləcəyi müəssisədən ala bilərlər.

İxtisas imtahanı sentyabr ayının sonunda vaxtı və məkanı Elm və Təhsil Nazirliyi (ETN) tərəfindən müəyyən edilməklə təşkil olunur. "Fəlsəfə" imtahanında *"məqbul*" alan şəxslər imtahana buraxılır. "İxtisas" fənni üzrə uyğun sual və mövzular namizədlərə iyun ayından təqdim edilir. Bərabər ballar toplandığı halda, müsabiqədə ixtisas fənnindən daha yüksək qiymət alan və çap edilmiş elmi əsərləri olan şəxslərə üstünlük verilir.

**4.2.3.** Doktoranturada əyani və ya qiyabi plan yerləri, o cümlədən dövlət sifarişli və ya ödənişli yerlərin sayını ETN müəyyən edir.

Daha ətraflı məlumat üçün **"Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"** ilə tanış ola və ya əsas bina II mərtəbədə yerləşən Elm və yaradıcılıq işləri üzrə prorektorluğa yaxınlaşa bilərsiniz.

Qəbul imtahanlarını müvvəffəqiyyətlə keçən şəxslər ADMİU ilə əlaqə saxlayır.

**Qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:**

1. Rektorun adına ərizə
2. Kadrların şəxsi-qeydiyyat vərəqi
3. Tərcümeyi-hal
4. 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə)

5. İş yerindən xasiyyətnamə
6. Əmək kitabçasından çıxarış
7. Çap olunmuş elmi işlərin siyahısı və ya referat
8. Ali təhsil müəssisəsini bitirmək haqqında diplomun və diploma əlavənin (bakalavr və magistratura təhsil səviyyələri üzrə) müvafiq qaydalarda təsdiq edilmiş surətləri (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil barədə sənədlərin tanınması haqqında şəhadətnamə)
9. Şəxsiyyəti təsdiq edən sənədin surəti.

ADMİU-da doktorantura ilə bağlı məlumat üçün keçid:

https://admiu.edu.az/doktorantura/

Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları ilə tanış olmaq üçün keçid:

https://e-qanun.az/framework/19800

“Fəlsəfə doktoru imtahanlarının keçirilmə Qaydası” ilə tanış olmaq üçün keçid:

https://aak.gov.az/upload/page/FD_imtahanlar%C4%B1n%C4%B1n_ke%C3%A7irilm%C9%99si_Qaydalar%C4%B1-%C6%8FSAS1.pdf

## 4.3. Ömürboyu təhsil

Müvafiq bakalavriat dərəcəsinə malik hər bir şəxs əlavə ixtisas təhsili almaq arzusunu təmin etmək məqsədi ilə universitetdə müxtəlif ixtisaslar üzrə təkrar ali təhsil və yenidənhazırlanma təhsili ala bilər. Bu zaman xüsusi qabiliyyət tələb ixtisaslar üzrə təkrar ali təhsilə qəbul olmaq istəyən şəxs müvafiq portfolioya malik olmalıdır.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 08 oktyabr 2018-ci il 03-11-1620/15 məktubuna əsasən ADMİU-da Əlavə təhsilin yenidənhazırlanma təhsil növünün həyata

keçirilməsinə icazə verilmişdir. Hər iki əlavə təhsil növünün təşkili və tənzimlənməsi 2020-ci ildə ADMİU-da Tədrisin təşkili və keyfiyyətinin təminatı şöbəsinin nəzdində yaradılmış Əlavə təhsil bölməsində, 2022-ci ildə aparılan struktur dəyişikliyi nəticəsində Tədris şöbəsinin nəzdində təsis edilmiş Ömürboyu təhsil, karyera və məzunlarla iş bölməsində həyata keçirilir.

**4.3.1. Təkrar *ali* təhsil ilkin *təhsil* proqramı ilə yenidən əldə ediləcək ixtisasın *təhsil* proqramı arasındakı fərq bir tədris ilinə hesablanmış saatdan çox olduqda, mütəxəssislərə verilən əlavə təhsil növüdür.**

Hər il mövcud olan ixtisaslara görə təkrar ali təhsilə qəbul haqqında universitetin rəsmi saytında və KİV-də elan verilir. https://www.portal.edu.az saytından qeydiyyatdan keçən namizədlərin sənədləri qaydasında olduqda müsahibəyə yönləndirilir. Seçdikləri ixtisasa uyğun olaraq portfolio təqdim edən şəxslər müsahibədən uğurla keçdikdə təkrar ali təhsilə qəbul olunurlar. Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə namizədlər müvafiq kafedranın mütəxəssisləri tərəfindən tərtib olunmuş proqram əsasında müsahibəyə cəlb olunurlar.

**Təhsilalma tədrisə tam (fulltime) və ya qismən (parttime) cəlb edilməklə yalnız əyani formada və ödənişli şəkildə aparılır.** Əvvəl aldığı ixtisasın *təhsil* proqramında öyrənilmiş fənlərin məzmunu və kreditlərinin sayı yeni almaq istədiyi əlavə ixtisasın təhsil proqramına daxil olan hər hansı fənnin məzmununa və kreditinə uyğun olduqda, tələbə həmin fənlər üzrə məşğələlərdən və attestasiyadan azad olunur. Belə olan halda təhsil müddəti qısala bilər. Təkrar ali təhsil üzrə proqram və tədris planı əsasında ali təhsilini müvəffəqiyyətlə başa vuranlara bakalavr dərəcəsi və ali təhsil haqqında diplom verilir.

**Parttime təhsil** aldıqda tələbənin tədris qrafiki (cədvəl) onun seçdiyi fənlərə uyğun tərtib olunur. Tələbə semestr ərzində minimum 2 fənn götürməlidir. Tələbənin götürdüyü fənlərin kreditlərinin cəmi 20 krediti (fənn sayı əhəmiyyət təşkil etmir) keçməməlidir. Parttime təhsil alan tələbənin təhsil haqqı götürdüyü fənnlərin kreditinə müvafiq tənzimlənir. Parttime təhsil alan tələbələr təqaüd almırlar. Bu zaman ödəniş məbləği aşağıdakı düstur əsasında hesablanır:

- İllik təhsilhaqqı **/** 60 **x** kredit sayı

İllik təhsilhaqqı ***cari ildə*** ixtisasın əyani üzrə illik təhsilhaqqına bərabər tutulacaqdır.

**4.3.2 Yenidənhazırlanma təhsili** ilkin baza peşə-ixtisas təhsili almış və müəyyən əmək sahəsində çalışan hər bir vətəndaşın müvafiq sahə üzrə yeni peşə və ixtisasa yiyələnmək istəyini həyata keçirən əlavə təhsil formasıdır və kadrlara olan real tələbatın daha dinamik və çevik surətdə ödənilməsinə xidmət edir. Bu təhsil forması ilkin *təhsil* proqramları ilə yenidən əldə ediləcək *ixtisasın təhsil proqramı* arasındakı fərqin bir tədris ilinə hesablanmış saatdan çox olmaması şərtilə mütəxəssislərə verilən əlavə təhsildir.

**Yenidənhazırlanmaya icazə verilmiş ixtisasların siyahısı** hər il universitetin rəsmi saytında elan edilir. Baza ixtisası ilə yenidənhazırlanma üzrə ixtisas arasındakı kredit **fərqi 60 kreditdən çox olmadıqda** həyata keçirilir. Sənədlər müvafiq tələblərə cavab verdiyi halda müraciət edən şəxslər müsahibəyə dəvət edilirlər və uğurla keçən şəxslər yenidənhazırlanma təhsili almaq hüququ qazanırlar.

**Yenidənhazırlanma təhsili bir (1) illikdir**, **əyani formada və ödənişli əsaslarla həyata keçirilir.** Yenidənhazırlanma təhsili üzrə proqramları tam mənimsəyən,

dövlət attestasiyasından müvəffəqiyyətlə keçən hər bir dinləyiciyə vahid formada dövlət sənədi — **diplom** verilir.

## 4.4. MBA proqramına qəbul

**ADMİU-da MBA proqramı üzrə təhsil "Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 12 may tarixli, 88 nömrəli qərarına uyğun olaraq həyata keçirilir.

56 saylı MBA (Biznesin idarə edilməsi) proqramına aid ixtisaslaşmaları seçmək üçün bakalavrlardan imtahandan müvəffəqiyyətlə keçmək və fənlər üzrə müsabiqə şərtlərini ödəmək tələb olunur .

Keçid balını toplamış və ixtisas seçimi nəticəsində ADMİU-ya qəbul olmuş şəxslərin qeydiyyatı aparıldıqdan sonra onlar magistr tələbələri sırasına qəbul olunmuş hesab olunur. **MBA proqramı üzrə təhsil əyani formada, ödənişli əsaslarla həyata keçirilir**.

Dərslər Azərbaycan, ingilis və rus dillərində tədris olunur. Təhsil müddəti 2 ildir (24 ay, 4 semestr).

Proqram haqqında məlumatlara keçid:

https://admiu.edu.az/mba-proqrami/

## 4.5. Ödənişli kurslar

ADMİU-nun Elmi Şurasının 27 oktyabr 2022-ci il qərarında (protokol №01) göstərildiyi kimi Azərbaycan Respublikasının "Təhsil haqqında" qanununu, Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 yanvar tarixli 995 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın

həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı"nın 3.3.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2018-ci il 18 iyul tarixli 311 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"ni əsas tutaraq ADMİU-da ödənişli əsaslarla kurslar təşkil edilir. Bu kursları müvəffəqiyyətlə bitirən tələbələrə müvafiq sertifikat təqdim edilir.

Ömürboyu təhsil, karyera və məzunlarla iş bölməsinin sosial şəbəkə hesablarından ömürboyu təhsil, MBA proqramlar və ödənişli kurslar barədə ətraflı mlumat əldə edə bilərsiniz:

Linkedin: https://www.linkedin.com/in/asuca-lifelong-education-career-and-alumni-affairs-department-8588a1282

Facebook: https://www.facebook.com/profile.php?id=100070696576034&mibextid=2JQ9oc

İnstagram:https://www.instagram.com/omurboyutehsiladmiu

## 4.6. Əcnəbi tələbə qəbulu

Əcnəbilər ADMİU-ya iki vasitə ilə qəbul ola bilərlər:

1. *DİM imtahanları* vasitəsilə;

Daimi yaşayış icazəsi olan əcnəbilər vətəndaşlarla eyni təhsil hüququna malikdirlər və bu əsasla ali təhsil müəssisələrində təhsil ala bilərlər.

2. *"portal.edu.az"* vasitəsilə.

Namizədlər əvvəlcə "portal.edu.az" saytı üzərindən hesab yaradıb müvafiq xanaları doldururlar. Daha sonra müvafiq sənədləri yükləyirlər:

- Pasport
- Sağlamlıq haqqında arayış

- Təhsil sənədi və onun Azərbaycan dilinə tərcümə və təsdiq olunmuş versiyası.

Daha sonra Universitet əməkdaşları AOİTAS sistemində müraciətlər bölməsində müraciətin qaydasında olduğundan əmin olduqdan sonra namizədlə müsahibə təşkil edilir və o, ödəniş bölməsinə yönləndirilir. Daha sonra ID kodu ilə sənədləri Miqrasiya Xidmətinə yönləndirilir və ona Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazənin verilməsi məqsədilə müraciət edilir. Namizəd öz bank hesabını istədiyi ölkədə aça bilər. Onun biometrik şəkli isə qırmızı fonda olmalıdır. Sağlamlıq arayışı isə yalnız iki xəstəxanadan alındıqda etibarlıdır:

- Xüsusi Müalicə Sağlamlıq Kompleksi MMC – Badamdar Şossesi 31T – (012) 493 81 25
- International Medical Centre – Aşıq Molla Cümə 11B – (+994 70) 266 55 74

Bu işləri tamamladıqdan sonra namizəd Əsas binanın II mərtəbəsində yerləşən Beynəlxalq əlaqələr üzrə prorektorluğa yaxınlaşmalıdır. Əcnəbi tələbələr Azərbaycan və ya rus dillərini bilmədikləri halda (***sertifikat tələb olunur***) onlar müvafiq bölmə üzrə hazırlıq qruplarına yerləşdirilir. Hazırlıq qrupları **ödənişlidir** və tələbələr sonda ***sertifikasiyadan keçirlər***. Müvəffəq nəticə göstərən tələbələr artıq ixtisas dərslərinə başlayırlar.

Daha ətraflı məlumat üçün keçid:

https://admiu.edu.az/beyn%C9%99lxalq-%C9%99laq%C9%99l%C9%99r/

## 4.7. SABAH Qruplarına qəbul

SABAH qruplarına (bax bölmə **2.2**) tələbələrin qəbul prosesi **Aktyor sənəti** və **Rejissorluq** ixtisaslarının tələləbələri

sırasından I təhsil ililin payız semestri bitdikdən sonra başlayır. SABAH qruplarına ərizə qəbulu elanından sonra ADMİU-nun SABAH Mərkəzinin müraciəti ilə fakültələr tələbələri məlumatlandırır.

Qəbul üç mərhələdən ibarətdir:

- **I mərhələdə** tələbələr akademik borcu olmayan və ümumi orta müvəffəqiyyət göstəricisi 61 baldan az olmayan tələbələr **“sabah.edu.az”** portalında şəxsi kabinet yaradır və qeydiyyatdan keçirlər.
- **II mərhələdə** məntiq və ingilis dilindən test imtahanı verirlər. İngilis dili komponenti üzrə 50 (əlli) və məntiq komponenti üzrə 50 (əlli) sual təqdim edilir. Sualların cavablandırılmasına 2 (iki) saat vaxt ayrılır.
- **III mərhələdə** isə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin müəyyənləşdirdiyi komissiya üzvləri tərəfindən müsahibə yolu ilə seçilirlər.

**QEYDLƏR:**

1. Müsabiqədə tələbələr yalnız təhsil aldıqları ixtisas üzrə iştirak edə bilərlər.
2. Müvafiq ixtisas üzrə SABAH qruplarında təhsil almaq üçün bir ali təhsil müəssisəsindən digərinə köçürülməsi zərurəti yaranan tələbələr bu ali təhsil müəssisələrinin müvafiq ixtisaslarının tədris planları (birinci tədris ili üzrə) arasında akademik fərqin 2 fəndən artıq olmadığı halda müsabiqədə iştirak edə bilərlər.
3. Müsabiqənin bütün mərhələlərində iştirak etmiş namizədlərin qiymətləndirilməsi müvafiq mərhələlər, həmçinin namizədlərin ali təhsil müəssisələrinə qəbul balları üzrə xüsusi çəki əmsalları nəzərə alınmaqla aparılır.

4. Bütün mərhələlər üzrə qiymətləndirmə aşağıdakı meyarlar əsasında həyata keçirilir.

1. Akademik göstəricilər (ÜOMG);
2. Test imtahanının nəticəsi;
3. Müsahibə nəticəsi;
4. Ali təhsil müəssisəsinə qəbul balı.

## 4.8. Təhsil müddəti

ADMİU-da bakalavriat səviyyəsində əyani formada normativ *təhsil müddəti* 4 (dörd) il, qiyabi forma üzrə 5 ildir.

ADMİU-da 3 növ magistratura proqramı mövcuddur:

–Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə - 1.5 illik,

–nəzəri ixtisaslar – 2 illik

–MBA proqramı üzrə - 2 illik

1.5 illik magistratura proqramında və MBA proqramında tələbələr dissertasiya işi müdafiə etmədikləri üçün doktorantura səviyyəsi üzrə təhsillərini davam etdirə **bilmirlər.**

2 illik magistratura proqramını bitirən tələbələr doktorantura səviyyəsi üzrə təhsillərini davam etdirə bilirlər.

**1.5 illik** ixtisaslar (ixtisaslaşmalar) aşağıdakılardır:

Aktyor sənəti (Dram teatrı və kino aktyoru)

Aktyor sənəti (Musiqili teatr aktyoru)

Rejissorluq (Teatr rejissoru)

Dekorativ sənət (Bədii xalça)

Dekorativ sənət (Bədii toxuculuq)

Rəngkarlıq (Dəzgah rəngkarlığı)

Rəngkarlıq (Kino və televiziya rəngkarlığı)

Rəngkarlıq (Teatr-dekorasiya rəngkarlığı)

Rəngkarlıq (Rəngkarlıq əsərlərinin bərpası və ekspertizası)

Rəngkarlıq (Dekorativ rəngkarlıq)

Qrafika (Dəzgah qrafikası)
Qrafika (Kitab tərtibatı və illüstrasiyası)
Qrafika (Qrafika əsərlərinin bərpası və ekspertizası)
Dizayn (Geyim dizaynı)
Dizayn (İnteryer dizaynı)
Dizayn (Sənaye dizaynı)
Dizayn (Qrafik dizayn)
Dizayn (Animasiya və kompüter qrafikası)
Rejissorluq (Televiziya rejissoru)
Rejissorluq (Kino rejissoru)
Rejissorluq (Animasiya rejissoru)
Operator sənəti (sahələr üzrə)
İnstrumental ifaçılıq (fortepiano, violin (skripka), viola (alt), gitara, klarnet, saksafon, zərb alətləri)
Solo oxuma (Xanəndəlik)
Solo oxuma (Aşıq sənəti)
Estrada sənəti (Populyar musiqi və caz ifaçılığı)
Xalq çalğı alətləri ifaçılığı (tar, kamança, qanun, nağara, balaban)

**2 illik** ixtisaslar (ixtisaslaşmalar) aşağıdakılardır:
Aktyor sənəti (Aktyor ifaçılığının tarixi və nəzəriyyəsi)
Teatrşünaslıq (Teatr tənqidi)
Teatrşünaslıq (Teatr tarixi və nəzəriyyəsi)
Rejissorluq (Rejissor sənətinin tarixi və nəzəriyyəsi)
Sənətşünaslıq (Təsviri incəsənət tarixi və nəzəriyyəsi)
Muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması (Muzeyşünaslıq)
Muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması (Arxeoloji və tarixi memarlıq abidələrinin mühafizəsi)
Sənətşünaslıq (Mədəniyyətin tarixi)
Sənətşünaslıq (Mədəniyyətin nəzəriyyəsi)

Menecment (Kino və televiziya sahəsi üzrə)
Menecment (Muzey və qalereya sahəsi üzrə)
Menecment (Teatr sahəsi üzrə)
Menecment (Musiqi sahəsi üzrə)
Turizm və otelçilik (Sosial-mədəni sahələrdə xidmətin təşkili)
Turizm və otelçilik (Turizmin bələdçisi)
Turizm və otelçilik (Turizm və sosial-mədəni servis xidməti)
Sosial iş (Gənclərlə iş)
Sosiologiya (İdarəetmənin sosiologiyası)
Bədii yaradıcılıq və ekran dramaturgiyası (Ssenarist)
Kinoşünaslıq (Kino tarixi və nəzəriyyəsi)
Kinoşünaslıq (Kino tənqidi)
Operator sənəti (Kinooperator sənətinin tarixi və nəzəriyyəsi)
İnstrumental ifaçılıq (İnstrumental ifaçılığın tarixi, nəzəriyyəsi və metodikası (musiqi alətləri üzrə))
Musiqişünaslıq (Musiqi tənqidi)
Musiqişünaslıq (Etnomusiqişünaslıq)
Xalq çalğı alətləri ifaçılığı (Xalq çalğı alətləri ifaçılığının nəzəriyyəsi və metodikası)
Biznesin təşkili və idarə edilməsi (mədəniyyət sahələri üzrə)

**Doktorantura təhsili üzrə**

*Fəlsəfə doktoru* proqramı üzrə doktoranturada əyani təhsil müddəti 3 il, qiyabi 4 il, dissertantlıq yolu ilə 4 il,

*Elmlər doktoru* proqramı üzrə doktoranturada əyani təhsil müddəti 4 il, qiyabi 5 il, dissertantlıq yolu ilə 5 ildir.

Müstəsna hallarda bütün təhsil formaları üzrə təhsil müddəti uzadıla bilər.

## V. TƏLƏBƏ BİLETLƏRİNİN VERİLMƏSİ

Tələbələr qəbul olduqdan sonra onların müvafiq əmri verildikdən sonrakı 1 ay müddətində tələbə biletlərinin verilməsinə başlanılır. Tələbə bileti tələbələrə 5 müxtəlif funksiyadan yaralanmaq imkanı verir:

1. İctimai nəqliyyatdan istifadəyə imkan verən kart kimi;
2. Debet kartı kimi;
3. Turniket sistemilə Universitetin binalarına giriş üçün;
4. Təqaüd kartı
5. Tələbə bileti olaraq.

## VI. TƏHSİLALANLARIN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

Azərbaycan Respublikasında təhsil alan bütün tələbələr təhsil səviyyəsi, təhsilama forması, vətəndaşlığı və s. asılı olmayaraq təhsil müəssisəsini, təhsilin istiqamətini, ixtisası, təhsilalma formasını, tədris dilini və xarici dili sərbəst seçmək;

-ali təhsil müəssisəsinin tədris planlarına uyğun olaraq tədris fənlərini, semestrlər üzrə kreditlərin miqdarını, təhsilverənləri və tyutorları sərbəst seçmək;

-təhsil müəssisəsinin mövcud infrastrukturundan istifadə etmək;

-müəyyən edilmiş qaydada təhsil müəssisəsini, ixtisasını və təhsilalma formasını dəyişmək, təhsil müəssisəsindən xaric və ya təhsil müəssisəsinə bərpa olunmaq da daxil olmaqla 19 iyun 2009-cu il tarixli “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununun 32-ci maddəsində nəzərdə tutulmuş *bütün hüquqlardan istifadə edə bilər və bütün vəzifələri daşıyırlar.*

ADMİU-da təhsil alan hər bir tələbə təhsil səviyyəsi, təhsilama forması, vətəndaşlığı və s. asılı olmayaraq ADMİU-nun 29 mart 2023-cü il tarixli ***"Akademik Dürüstlük Siyasəti" sənədinin*** **"Nizam-intizam qaydalarının"** müddəalarına riayət etməlidirlər.

🌐 "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tanış olmaq üçün keçid:

https://e-qanun.az/framework/18343

🌐 ADMİU-nun "Akademik Dürüstlük Siyasəti" ilə tanış olmaq üçün keçid:

https://admiu.edu.az/wp-content/uploads/2024/03/Akademik_durustluk_siyaseti.pdf

**Hüquqi yardım xidməti**

ADMİU-da təhsil alan hər kəs təhsil, tədris prosesi və ya bu proseslərə təsir edə biləcək istənilən məsələ ilə bağlı hüquqşünasdan yardım ala bilər.

🌐 Hüquqşünasla əlaqə: aydin.karimov@admiu.edu.az

## VII. AKADEMİK TƏQVİM VƏ TƏDRİS İLİ

### 7.1. Akademik təqvim

Tədris ilində təhsillə bağlı bütün akademik fəaliyyətlərin vaxtında icra olunması üçün hər tədris ilinin başlanğıcında Elmi Şura tərəfindən təsdiq olunan akademik təqvim hazırlanır.

*Akademik təqvim* – ali təhsil müəssisəsində tədris ili üzrə nəzərdə tutulmuş tədbirləri özündə əks etdirən sənəddir.

Təqvim Tədris şöbəsi tərəfindən hazırlanır və tələbələr ***"admiu.edu.az"*** ünvanına daxil olduqda açılan pəncərədən ***Təhsil*** adlı bölmənin üzərinə kursoru gətirdikdə açılan

pəncərədən ***Akademik təqvim*** yazısının üzərinə klikləməklə bu təqvimə baxa və onu yükləyə bilərlər.

Akademik təqvimlə tanış olmaq üçün keçid:

https://admiu.edu.az/wp-content/uploads/2024/03/Akademik_teqvim.pdf

## 7.2. Tədris ili

*Tədris ili* iki semestrdən – payız və yaz, ibarətdir. Bundan əlavə, yay tətili müddətində 6 (altı) həftəlik yay semestri də təşkil oluna bilər. Həm bakalavriat, həm də magistratura səviyyəsində əyani təhsilalma forması üzrə tədris ili 40 həftədir. Hər semestr 20 həftədən ibarətdir. Bu zaman 5 həftə imtahan sessiyası üçün nəzərdə tutulur.

Qiyabi təhsilalma forması üzrə tədris ili 32 həftədir. Hər semestr 16 həftədən ibarətdir və 1 həftəsi imtahan sessiyasıdır.

Qaydalara görə kredit sistemində təhsil alanlar üçün semestrlər üzrə **auditoriya dərsləri 15 həftə** müəyyən olunur. Tələbənin həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi isə 45 saatdır. Qaydaya görə tələbəyə **hər semestrdə** tədris olunan bütün fənlər üzrə **30 kredit** müəyyənləşdirilir və beləliklə tələbə **bir tədris ili ərzində 60 kredit** yığmalıdır.

Tədrisə tam cəlb olunan tələbəyə əlavə fənn və ya fənlər də seçməyə icazə verilir. Tələbənin göstəriciləri 81-100 arası olduqda və dövlət sifarişli təhsil alarsa ödəniş etmədən 10 kredit həcmində fənn seçə bilər. Tələbənin kəsri yarandığı halda götürdüyü əlavə fənlərə görə isə tələbə ödəniş etməlidir. Bütün hallarda bir semestrdə tələbənin götürə biləcəyi kreditlərin sayı 40-dan çox olmur.

**Yay semestri**

Yay semestri könüllülük prinsipi ilə ödənişli əsaslarla həyata keçirilir. O, aşağıdakı məqsədlərlə təşkil olunur:

– akademik borcların ləğv edilməsi;

– fənlərin prerekvizitliyi gözlənilməklə, humanitar fənlər bölümünə daxil olan və ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən seçmə fənlərin kreditlərinin qazanılması;

– müvəffəq qiymət alınmış fənn üzrə qiymətin yüksəldilməsi;

– ali təhsil müəssisəsinin təklif etdiyi ayrı-ayrı fənlər üzrə digər ali təhsil müəssisəsi tələbələrinə müvafiq kreditlər qazanmasına şəraitin yaradılması.

Yay semestri yaz semestri başa çatdıqdan sonra təşkil olunur və onun başlanma müddəti universitet tərəfindən müəyyən edilir. Tələbələr akademik təqvimdə göstərilən tarixlərdə yay məktəbində təhsil almaq üçün ərizə ilə fakültə dekanlığa müraciət etməlidirlər.

Yay semestrinin (nəzəri təlim və imtahanlar) ***müddəti 6 həftədir.*** İmtahan müddəti ***1 həftədən artıq olmamaqla***, yay semestrinin sonuncu həftəsində təşkil edilir.

Yay semestrində tələbənin götürdüyü fənlər üzrə kreditin ümumi həcmi ***10-dan artıq olmamalıdır.***

Yay semestri üzrə imtahanlar növbəti semestrin başlanmasına 2 həftə qalanadək başa çatdırılır.

**Qeyd:** Yay semestrində *üzrlü səbəbdən* imtahanda iştirak etməyən tələbələr üçün növbəti semestrin başlanğıcına qədər bir dəfə imtahan təşkil olunur.

İmtahan sessiyasında müvəffəq qiymət alınan fənn üzrə qiyməti yüksəltmək məqsədi ilə tələbəyə yenidən imtahan verməyə icazə verilmir. O, qiyməti yüksəltmək üçün yay semestrində həmin fənni yenidən dinləməklə imtahan verə

bilər. Tələbə öz məqsədinə nail olmadıqda, onun əvvəl qazanmış olduğu bal qüvvədə qalır.

Müvafiq qaydaların tələblərinə uyğun olaraq, imtahana buraxılmayan tələbə semestrdə fənn (fənlər) üzrə müəyyən edilmiş dərslərin 50 faizindən çoxunda iştirak etdiyi halda o, həmin fənni (fənləri) yay semestrində iştirak etmək hüququna malikdir.

Yay semestrində tələbənin fənn üzrə bir kreditinin ödənişi müvafiq qaydaların tələblərinə uyğun olaraq müəyyən edilir.

Yay semestrində fənn üzrə qrupda tələbələrin sayını isə universitet maliyyə imkanlarını nəzərə alaraq müəyyənləşdirir.

Yay semestrinə müəllimlər könüllü surətdə cəlb olunurlar.

## VIII. TƏDRİS DİLİ

Universitetdə tədris üç dildə – Azərbaycan, ingilis və rus dillərində aparılır.

➢ Bakalavriat səviyyəsində bütün ixtisas və ixtisaslaşmalarda tədris Azərbaycan dilində, *Təsviri incəsənət müəllimliyi, Bədii yaradıcılıq və ekran dramaturgiyası, Aktyor sənəti, Dekorativ-tətbiqi sənət, Dizayn, Muzey, arxiv işi və abidələrin qorunması, Operator sənəti, Populyar musiqi və caz ifaçılığı (Estrada sənəti), Qrafika, Rejissorluq, Rəngkarlıq, Sosial iş,* ixtisaslarında və *İnstrumental ifaçılıq ixtisasının Klassik musiqi alətləri* ixtisaslaşmalarında, *Sənətşünaslıq ixtisasının Təsviri sənətin tarixi və nəzəriyyəsi* ixtisaslaşması üzrə rus dilində aparılır.

➢ Magistratura səviyyəsində bütün ixtisas və ixtisaslaşmalarda tədris ***Azərbaycan dilində***, *Muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması, Rəngkarlıq, Dizayn* və *Turizm və otelçilik* ixtisaslarının bütün ixtisaslaşmalarında,

*Sənətşünaslıq* ixtisasının bəzi ixtisaslaşmalarında, *Rejissorluq* ixtisasının bəzi ixtisaslaşmalarında, *Operator sənəti* ixtisasının bəzi ixtisaslaşmalarında, *Qrafika* ixtisasının bəzi ixtisaslaşmalarında, *Estrada sənəti*, *Bədii yaradıcılıq və ekran dramaturgiyası* ixtisaslarında tədris ***rus dilində***, *MBA proqramında* isə ***hər üç dildə*** tədris aparılır.

## IX. TƏLƏBƏ HƏYATI

**9.1**, **9.2** və **9.3**-cü bəndlərdə göstərilən təşkilatlara üzvlük və üzvlükdən çıxma könüllü əsaslarla həyata keçirilir. Tələbələr istənilən zaman bu təşkilatların üzvlüyündən çıxa bilərlər.

### 9.1. Tələbə Gənclər Təşkilatı

Tələbə Gənclər Təşkilatı tələbələrin özünüidarə orqanıdır. TGT üzvü olmaq üçün tələbə TGT üzrə fakültə sədrinə (5 fakültə üzrə) məlumatlarını *(elektron poçt ilə də mümkündür)* ötürməlidir. Sədrlər məlumatları əldə edib, tələbəni müvafiq şəbəkələşmə və məlumatlandırma qrupuna əlavə edib, Universitet üzrə TGT sədrinə lazımi informasiyaları göndərir. TGT üzvlüyü üçün heç bir ödəniş tələb olunmur, o cümlədən TGT tərəfindən buradakı fəaliyyəti və bu fəaliyyəti başa çatdırdıqdan sonrakı müddətdə də tələbənin stipendiya və digər şəxsi vəsaitindən heç bir məbləğ tutulmur. *SABAH qruplarının tələbələri də TGT üzvü ola bilər.*

TGT əsasən aşağıdakı məsələləri həll edir:

- tələbələr arasında maarifləndirmə işlərinin aparılması;

- tələbələrin iştirakı ilə müsabiqə, seminar, vebinar, forumlar, festivallar, aksiyalar, sərgilər, toplantılar, təbliğat kompaniyaları, diskussiya klublarının təşkili;
- eyni zamanda müxtəlif layihələr təşkil etmək və iştirak etmək.

TGT-nin elektron poçt ünvanı: tgt@admiu.edu.az

Elm və yaradıcılıq prorektorluğunun nəzdində fəaliyyət göstərən Yaradıcılıq layihələrinin idarəolunması şöbəsi universitetdə və universitetdən kənar həyata keçirilən müxtəlif tədbirləri koordinasiya edir. TGT, THİK və TEYC, o cümlədən kafedra və dekanlıqlar tərəfindən nəzərdə tutulan tədbirlər əlaqələndiri https://www.instagram.com/admiuresmi

## 9.2. Tələbə Həmkarlar İttifaqı Komitəsi

THİK təhsil alan tələbələrin bir qismini birləşdirən könüllü təşkilatdır. 5 fakültə təşkilatını özündə birləşdirir. Hər bir tələbə THİK üzvü ola bilər. Bunun üçün tələbə əvvəlcə ərizə ilə müraciət etməlidir. Daha sonra tələbə ona təqdim edilən bank rekvizitlərinə əsasən illik üzvlük haqqı ödəyir və bundan sonra ona üzvlük vəsiqəsi təqdim olunur. THİK-ə 1 illik üzvlük haqqı 10 AZN-dir. *SABAH qruplarının tələbələri də THİK üzvü ola bilər.*

Bu məsələlər fəaliyyət istiqamətləridir:

- Tələbələrin şəraiti;
- Tələbələrin mənzil-məişət problemləri;
- Tələbələrin sosial problemlərinin həlli istiqamətində işlər;
- Tələbələrin asudə vaxtlarının səmərəli təşkili;
- Tələbələrin hüquq və maraqlarının təmin edilməsi;

- Ölkədaxili olimpiadalar, müsabiqələr, sərgi, festival və digər yaradıcı sahələrdə tələbələrin iştirakının təmin edilməsi və s.

THİK-in elektron poçt ünvanı: thik@admiu.edu.az

### 9.3. Tələbə Elmi-Yaradıcılıq Cəmiyyəti

TEYC-ə üzv olmaq üçün fakültə üzrə TEYC sədri ilə əlaqə saxlanmalıdır. TEYC sədrləri tələbənin könüllü müraciətindən sonra *(elektron poçt ilə də mümkündür)* onu qeydiyyata alırlar. TEYC üzvlüyü ödənişsizdir. *SABAH qruplarının tələbələri də TEYC üzvü ola bilər.* Tələbə Elmi Cəmiyyəti aşağıdakıları həyata keçirir:

- debatların təşkili;
- kitabların və elmi əsərlərin təhlili və müzakirəsi;
- başqa universitetlərlə yarışların təşkili;
- müxtəlif layihələr təşkil etmək;
- elmi-praktiki seminarlar təşkil etmək;
- sərgilər təşkil etmək;
- müxtəlif tədbirlər təşkil etmək;
- seminarlar təşkil etmək.

TEYC-in elektron poçt ünvanı: tec@admiu.edu.az

### 9.4. Mentor Tələbə Proqramı

Mentor tələbə yuxarı təhsil ili tələbələri sırasından könüllü olaraq seçilir və yeni tələbələr, o cümlədən əcnəbi tələbələrin bələdçisi kimi onların universitet və əlaqəli məsələlərdə məlumatlandırılması və dəstəklənməsini təmin edir.

## X. TƏCRÜBƏ

Bakalavriat səviyyəsində müxtəlif ixtisaslarda tədris planlarına uyğun olaraq I, III və IV təhsil ilində və payız və yaz semestrlərində aparıla bilər. Təcrübələr Universitetin müqavilə imzaladığı müəssisələrdə, o cümlədən pedaqoji təcrübə ilə əlaqədar təhsil müəssisələrində həyata keçirilir.

Magistratura səviyyəsində 2 illik ixtisaslarda təhsil alan II təhsil ilinin tələbələri yalnız yaz semestrində elmi-tədqiqat və elmi-pedaqoji təcrübə fakültələrinin müvafiq kafedralarında keçirlər. 1.5 illik magistrlar isə payız semestrində təcrübə keçir. Bir sıra ixtisaslar üzrə təhsil alan magistrantların elmi-tədqiqat təcrübəsi müqavilə bağlanmış ***digər müəssisələrdə*** keçirilə bilər.

Təcrübənin qiymətləndirilməsinə növbəti bölmələrdə yer ayrılmışdır.

## XI. QİYMƏTLƏNDİRMƏ VƏ QAYIBLARIN SON HƏDDİNİN MÜƏYYƏN EDİLMƏSİ

### 11.1. Tələbənin qiymətləndirilməsi (cari)

***Tələbələrin semestr ərzində cari və aralıq qiymətləndirməsi aparılır.*** **Cari qiymətləndirmə** tələbələrin fənn üzrə semestr ərzində fəaliyyətinin qiymətləndirilməsi, **aralıq qiymətləndirmə** isə semestrin sonu keçirilən imtahanlar zamanı bilik və bacarıqlarının qiymətləndirilməsidir.

***Tələbəyə fənlər üzrə kollokvium balların müəyyənləşdirilməsi***

Seminar (məşğələ) dərslərində tələbənin jurnalda ən azı 3 (üç) dəfə qiyməti olduğu halda ona tədrisin bu növü üzrə ballar hesablanır. Əks təqdirdə ona bal ayrılmır.

Semestr ərzində 3 dəfə kollokviumların keçirilməsi məcburidir. Kollokviumda iştirak etməyən tələbəyə «0» sıfır bal yazılır. **Qeyd.** Üzrlü səbəbdən iştirak etməyən tələbə bir həftə (kollokvium həftəsində - 5 iş günü) ərzində kollokviumda iştirak edə bilər.

***Fənn üzrə dərslərə davamiyyətə görə balların hesablanması***

Tələbə semestr ərzində fənn üzrə bütün dərslərdə iştirak etdiyi halda ona 10 bal verilir;

Semestr ərzində fənnin tədrisinə ayrılan saatların hər buraxılan 10%-nə 1 bal çıxılır;

Bütün fənlər üzrə semestr ərzində buraxılmış dərs saatlarının ümumi sayı müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə imtahan sessiyasına buraxılmır və onun haqqında müvafiq qərar qəbul edilir. Tələbənin cari semestrdə **akademik borcu** qaldığı halda o, növbəti semestrdə təqaüddən məhrum edilir (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Əgər həmin tələbə cari semestrdə götürdüyü bütün fənlərdən kreditləri qazanarsa, onun təqaüdü növbəti semestrdən bərpa olunur.

**Akademik borc** – hər hansı bir fənndən qayıb limitini keçdikdə, imtahandan keçid balı toplaya bilmədikdə, imtahan zamanı nizam-intizam qaydalarını kobud şəkildə pozduqda (köçürmə və s. hallarında), üzrsüz səbəbdən imtahanda iştirak etmədikdə tələbənin yaranmış kəsrinin adıdır.

***İmtahana qədər bal:***

0-10 bal dərslərə davamiyyətinə gorə;

0- 10 bal tələbənin sərbəst işinə gorə;

0-30 bal seminar (məşğələ) və ya laboratoriya dərslərinin (əgər varsa) nəticələrinə gorə;

***İmtahan balı:***

0-50 bal imtahanın nəticəsinə görə;

Tələbənin imtahandan topladığı balla (minimum 17 bal olmaq şərti ilə) imtahanaqədərki balın cəmi 51 olduqda imtahandan keçmiş hesab edilir.

Fənn üzrə semestr ərzində toplanmış balın yekun miqdarına görə tələbələrin biliyi aşağıdakı kimi qiymətləndirilir:

*(91-100) A əla*

*(81-90) B çox yaxşı*

*(71-80) C yaxşı*

*(61-70) D kafi*

*(51-60) E qənaətbəxş*

*(0-50) F qeyri-kafi*

Tələbə ali təhsil müəssisəsini bitirmək üçün tələb olunan kreditləri ixtisasın normativ təhsil müddətindən sonrakı 3 (üç) ildə (həqiqi hərbi xidmət müddəti nəzərə alınmamaqla) toplaya bilmədiyi halda o, məzmununda əsaslı dəyişikliklər edilən peşə hazırlığı fənlərindən əvvəllər qazandığı kreditləri itirir. Tələbə həmin kreditləri bu Qaydaların tələblərinə uyğun olaraq yenidən yığmalıdır.

Yaradıcılıq-ifa işləri üzrə imtahanları kafedralarda müəyyən edilmiş meyarlara uyğun aparılır.

## 11.2. Təcrübənin qiymətləndirilməsi

**Bakalavriat səviyyəsində keçirilən təcrübələr**

*Təcrübə* 100 balla qiymətləndirilir, bu zaman *hər biri 0-50 bal arası (pedaqoji təcrübəistisna olmaq şərtilə) iki mərhələdə*

Müəssisədəki təcrübəyə görə 0-50 bal

- Davamiyyətə görə - 0-10 bal
- Müəssisə tərəfindən verilən - 0-30 bal

- Universitetin təcrübə rəhbəri tərəfindən - 0-10 bal

Təcrübə saatlarının 25%-dən çoxunda iştirak etməyən tələbə attestasiyaya buraxılmır

Təcrübə hesabatına görə

- Hesabatın təqdimatına görə - 0-20 bal
- Hesabatın tərtibatına görə - 0-10 bal
- Komissiya qarşısında təqdimata görə- 0-20 bal

***Pedaqoji* təcrübə** 0-100 balla qiymətləndirilir:

Müəssisədəki fəaliyyət görə **0-70**

- Davamiyyətə görə - 0-10 bal
- Metodikalar (Sınaq dərsi) üzrə - 0-40 bal
- Pedaqoji iş üzrə - 0-10 bal
- Psixoloji iş üzrə - 0-10 bal

Tələbənin hesabatı üzrə **0-30 bal**

- Hesabatın tərtibi və təqdimatı 0- 20bal
- Sorğu-sual 0-10 bal

Sınaq dərsindən 17 baldan az toplayarsa, sınaq dərslərin 50%-dən çoxunda iştirak etməzsə, pedaqoji və psixoloji işlərdən birindən qeyri-müvəffəq qiymət alarsa və ya 25% davamiyyət limitini aşarsa, təcrübəni yenidən keçməlidir.

**Magistratura səviyyəsində təcrübə**

Magistratura səviyyəsində (1,5 illik) diplomqabağı (yaradıcılıq) təcrübə 100 balla qiymətləndirilir.

- Davamiyyətə görə - 0-10 bal
- Tapşırıqların yerinə yetirilməsinə görə - 0-40 bal
- Komissiya qarşısında hesabatın təqdimatı - 0-30 bal
- Komissiya qarşısında suallara cavaba görə - 0-20 bal

Magistratura (2 illik) səviyyəsində elmi-tədqiqat təcrübəsi 100 balla qiymətləndirilir. 0-50

- Davamiyyətə görə - 0-10 bal
- Tapşırıqların yerinə yetirilməsinə görə - 0-40 bal
- Komissiya qarşısında hesabatın təqdimatı - 0-30 bal
- Komissiya qarşısında suallara cavaba görə - 0-20 bal

Magistratura səviyyəsində (1,5 illik) pedaqoji təcrübə 100 balla qiymətləndirilir.

- Davamiyyətə görə -0-10 bal
- Açıq dərslərin keçirilməsinə görə -0-40 bal
- Komissiya qarşısında hesabatın təqdimatı -0-30 bal
- Komissiya qarşısında suallara cavaba görə -0-20 bal

Magistratura səviyyəsində (2 illik) elmi-pedaqoji təcrübə 100 balla qiymətləndirilir.

- Davamiyyətə görə - 0-10 bal
- Açıq dərslərin keçirilməsinə görə - 0-30 bal
- Təcrübə rəhbərinin hesabatı - 0-10 bal

Komissiya tərəfindən qiymətləndirilmə 0-50 bal

- Komissiya qarşısında hesabatın təqdimatı - 0-30 bal
- Komissiya qarşısında suallara cavaba görə - 0-20 bal

## 11.3. Dərs saatlarına uyğun olaraq qayıbların son həddinin tənzimlənməsi:

- 30 saatlıq dərs üçün 4 qayıb (8 saat)
- 45 saatlıq dərs üçün 6 qayıb (12 saat)
- 60 saatlıq dərs üçün 8 qayıb (16 saat)
- 75 saatlıq dərs üçün 10 qayıb (20 saat)
- 90 saatlıq dərs üçün 12 qayıb (24 saat)
- 105 saatlıq dərs üçün 14 qayıb (28 saat)
- 120 saatlıq dərs üçün 16 qayıb (32 saat)

## 11.4. ARALIQ QİYMƏTLƏNDİRMƏ (İMTAHAN SESSİYALARI)

Hər semestrin son 5 həftəsi imtahan sessiyası təşkil edilir. İmtahanlar fənlərin xüsusiyyətləri aşağıdakı formalarda təşkil edilə bilər:

- Tamaşa
- İfa
- Baxış
- Yazılı
- Test
- Şifahi və s.

Zəruri hallarda tələbələrin (sağlamlıq və digər) vəziyyəti ilə əlaqədar olaraq imtahanlar rektorun razılığı ilə online, videoyazı və s. formada təşkil oluna bilər.

Fənlər üzrə imtahanların keçirilməsi qaydası və qiymətləndirmə meyarları, həmçinin təcrübənin keçirilməsi ilə bağlı qaydalar və qiymətləndirmə meyarları müvafiq kafedralar tərəfindən müəyyən edilir və fənn sillabuslarında əks olunur.

## XII. TƏHSİL TƏLƏBƏ KREDİTİ

**Təhsilin əlçatanlığının təmin edilməsi, təhsildə bərabər imkanlar yaratmaq və təhsilin əhatə dairəsini genişləndirmək məqsədi ilə 2021-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə Təhsil Tələbə Krediti Fondu yaradılmışdır.**

**Təhsil tələbə krediti (TTK)** –Təhsil Tələbə Krediti Fondu tərəfindən ödənişli təhsil alan tələbənin hesabına ödənilən vəsaitdir. Təkrar ali təhsil növü istisna olmaqla təhsilin heç bir növü üzrə tələbələr TTK-dən istifadə edə bilməzlər.

Doktorantura səviyyəsində təhsilalanlar TTK-dan istifadə edə bilmirlər.

TTK hər semestrdə 1 dəfə olmaqla təhsilin normativ müddətində verilir (bakalavriat səviyyəsində 4 il, magistratura səviyyəsində ixtisasa (ixtisaslaşmaya) uyğun olaraq 1.5 və 2 il olmaqla).

TTK borcu **qaytarılır:**

- Borcalanın özü tərəfindən;
- Valideyni tərəfindən;
- Qəyyumu tərəfindən;
- İşəgötürəni tərəfindən;
- Və s.

TTK-nın iki növü var: **sosial və standart**

**Standart** növünün şərtləri aşağıdakılardır:

- Birinci tədris ilinin ilk semestri (yarımili) üçün tələbə qəbulu imtahanında toplanan ümumi balın Fondun Himayəçilik Şurası tərəfindən müəyyən edilən minimal həddindən yuxarı olanlar;
- Ötən semestrlər üzrə isə ÜOMG 71 bal və üzrə olmalı;
- İllik təhsil haqqının minimum 20% qədəri ödənmiş olmalı;

**Sosial** növündən yalnız sosial həssas qrupuna aid olan tələbələr istifadə edə bilər:

1. Ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvləri;
2. 3-cü dərəcə əlilliyi olanlar;
3. Hər iki valideyni (tək valideyni olduqda isə həmin şəxs) aşağıda qeyd olunan kateqoriyaların hər hansı birinə aid olanlar:

- 1-ci və ya 2-ci dərəcə əlilliyi olanlar;
- İşsiz kimi qeydiyyatda olanlar;
- Yaşa görə əmək pensiyası alanlar;

- Yaşa görə sosial müavinət alanlar.

Daha ətraflı:

🌐 https://e-ttkf.edu.az/Content/Documents/InstructionFile.pdf

# XIII. DİPLOM VƏ ƏLAQƏLİ MƏSƏLƏLƏR

## 13.1. Diplom

Diplom və diploma əlavələr tələbə məzun olduqdan sonra, növbəti semestr ərzində tələbələrə verilməyə başlanılır. Diplom və əlavələr eyni gündə verilməyə bilər. Diplomların verilməsi bütün il ərzində müəyyən edilmiş günlərdə aparılır. Diplom və diploma əlavəni alana qədər tələbələr bitirmə haqqında arayış ala bilərlər. Təhsilinə xaricdə davam edəcək tələbələr Tədris şöbəsi ilə əlaqə saxlayıb məlumat verməklə 1 (bir) ay ərzində diplomlarını götürə bilər. Digər tələbələr isə öncədən aşağıda qeyd olunmuş nömrələrlə əlaqə saxlamalı və gün alaraq diplomlarını təhvil almalıdırlar.

➢ Həftənin **1**, **3** və **5**-ci günləri **$10^{00}$-$16^{00}$** aralığında diplomlar verilir.

Diplomla əlaqəli məsələlərlə bağlı:

Əlaqə nömrəni (+994 12) 599 00 54 - 159 (daxili)

Elektron poçt ünvanı

fatima.gasimova@admiu.edu.az

## 13.2. Diplomların itirilməsi və ya korlanması

Diplomunu itirən və ya yararsız hala salan tələbə Ümumi şöbəyə yaxınlaşmalı və ərizə ilə müraciət etməlidir. Daha sonra 1 (bir) ay müddətində onun müraciəti əsasında diplomlar üzrə məsul şəxs Elm və Təhsil Nazirliyindən tələbənin dublikat

diplomunu götürür və müəyyən edilmiş tarixdə məzuna təqdim edir.

## 13.3. Diplom və diploma əlavə tələbəyə hansı üstünlükləri verir?

Boloniya sisteminin bir üzvü kimi Azərbaycanda toplanan kreditlərlə tələbələr Avropada təhsillərini davam etdirə bilər, təhsil aldığı dövr ərzində yüksək ümumi orta müvəffəqiyət göstəricisi (ÜOMG-si ) olan tələbələr mobillik proqramlarında iştirak edə bilərlər. Tələbələrin öz sahələri ilə bağlı təcrübə və biliklərinin yüksək olması onların müxtəlif mübadilə proqramlarında iştirakına və təqaüd proqramlarında iştirakı üçün olduqca təsirlidir.

## 13.4. Etibarnamə

Universitetdəki hər hansı məsələ ilə bağlı, o cümlədən arxivdə qorunan və şəxsin özünə aid materialın alınması barədə ərizə yazmaq üçün tələbə və məzunlar Ümumi şöbəyə yaxınlaşmalıdır. Tələbə, məzun səhhəti, hərbi xidmət keçməsi və digər üzrlü səbəblərlə özü ərizə yaza bilmədikdə etibarnamə verdiyi şəxslər onun adından müraciət edə bilər.

***Əcnəbi tələbələr*** *ölkəni tərk etməzdən əvvəl etibarnamə verilməsi məsələlərini həll etməlidir.* Elektron etibarnamə ilə də tələbələr bu hüquqlarından eyni qaydada istifadə edir. (Elektron etibarnamənin istifadəsi və digər təlimatlar üçün Ədliyyə Nazirliyinin elektron təlimatı https://www.justice.gov.az/documents/telimat.pdf)

## XIV. MİLLİ VƏ BEYNƏLXALQ MƏŞĞULLUQ. DÖVLƏT PROQRAMI

Tələbələrin işlə təmin olunması məqsədilə **Ömürboyu təhsil, karyera və məzunlarla iş bölməsi** fəal olaraq müvafiq qurum və təşkilatlarla əlaqədədir. Bölmə ixtisaslara uyğun vakansiya və təcrübə proqramları ilə bağlı tələbə və məzunların məlumatlandırılmasını təmin edir.

Boloniya prosesinin üzvü kimi Azərbaycanın universitetlərində təhsil almış tələbələrin xüsusilə Avropada məşğulluqla bağlı problem yaşamır. Onların diplomları və topladığı kreditlər tanınır. Hazırla bir çox ölkədə məzunlarımız yaşayır və əmək fəaliyyəti ilə məşğuldur.

Milli səviyyədə məşğulluğun artırılması məqsədilə **Ömürboyu təhsil, karyera və məzunlarla iş bölməsi** tələbələr və məzunlar üçün

- karyera planlaması üzrə təlimlər keçir və onların karyeralarının inkişaf etdirmələrinə köməklik göstərir;
- müəssisələrlə əlaqələrin inkişaf etdirilməsi məqsədi ilə **Karyera günləri** (seminar, konfrans, forum və s.) təşkil edir;
- təşkil olunmuş təlimlər vasitəsi ilə CV hazırlama, iş axtarma, işə müraciət və müsahibədə iştirak qaydaları haqqında məlumatlandırır;
- yerli və beynəlxalq təşkilatların təşkil etdiyi təqaüd proqramları haqqında tələbələri məlumatlandırır;
- karyera və əmək yarmarkaları ilə bağlı tələbə və məzunların məlumatlandırılmasını təmin edir;
- birinci təhsil ilindən mütəmadi olaraq tələbələri öz karyeralarını necə qurmaları haqqında məsləhətlər verir,

- məzunlar üçün iş imkanları yaratmaq məqsədi ilə onlarla şirkətlər arasında əlaqələr qurur və bu istiqamətdə bir sıra fəaliyyətlər həyata keçirir;

- iş təcrübəsi olmayan məzunlar üçün müvafiq iş yerlərində təcrübə keçmələrinə köməklik edir;

- Məzunların iş həyatında qazanmış olduqları təcrübələri tələbələrə aşılamaq məqsədi ilə məzunların tələbələr üçün vörkşop, təlim və seminarlarını təşkil edir;

- Karyera quruculuğu və əlaqəli məsələlərlə bağlı universitetin nəzdində fəaliyyət göstərən müxtəlif təşkilat və klublarla əlaqədə olur;

- xtisasları üzrə tələbələrin könüllü fəaliyyətə cəlb edilməsi istiqamətində təşviq edilməsini təmin edir;

- Məzunlar Assosiasiyasının fəaliyyətinə dəstək verir;

- Məzunlar Assosiasiyası ilə ADMİU-nun əməkdaşlığını koordinasiya edir;

- Məzunlarla tələbələrin əlaqələndirilməsini təmin edir;

Dövlət Məşğulluq Agentliyi ilə müntəzəm əməkdaşlıq edilir:

1. DMA tərəfindən görüşlər və təlimlər keçirilir;
2. DMA-nın müxtəlif layihələrində iştirak edilir;
3. DMA ilə birgə layihələr həyata keçirilir.
4. Tələbələrin karyera planlamasını təmin etmək üçün DMA müxtəlif vəsaitlərlə universiteti təmin edir və universitetə dəstək göstərir.

**Dövlət Proqramı**

Dövlət Proqramının məqsədi gənclərə xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsilalma imkanları yaratmaqla onların müasir texnologiyaları çevik mənimsəyən, praktiki bilik, bacarıqlara yiyələnən, müasir və gələcək əmək

bazarının tələblərinə cavab verən rəqabətqabiliyyətli, yüksəkixtisaslı peşəkar kadrlar kimi hazırlanmasını təmin etməkdir. Bu məqsədlə hökumət istedadlı şəxslərə maliyyə yardımı edir.

Proqram iştirakçılarının təhsilinin maliyyələşdirilməsi proqram iştirakçılarının aşağıdakı xərclərini əhatə edir: təhsil xərcləri, viza və təhsil aldığı ölkədə qeydiyyat xərcləri, aylıq yaşayış xərcləri, tibbi sığorta xərcləri, beynəlxalq nəqliyyat xərcləri, bank və plastik kart xərcləri.

Dövlət proqramı çərçivəsində tələbələr "təhsil" və "arxitektura və dizayn" başlıqlarında yer alan sahələr üzrə xaricdə dövlət hesabına təhsil ala və beynəlxalq təcrübəni ölkəmizə gətirə bilərlər. Universitetmizdə də müvafiq ixtisaslara uyğun kadr hazırlığı aparılır.

🌐 İxtisaları yoxlamaq üçün:

https://dp.edu.az/uploads/fileuploads/2023/11/0599d1ea0c724fb7999659e43658329f.pdf

🌐 Dövlət proqramına keçid: https://dp.edu.az/az/index

🌐 Müvafiq qanunvericiliyə keçid:

https://e-qanun.az/framework/49209

🌐 Ömürboyu təhsil, karyera və məzunlarla iş bölməsinin məzunlar ilə əlaqə üçün elektron poçt ünvanı:

mezun@admiu.edu.az

🌐 Məzunlar Assosiasiyasının Əsasnaməsinə keçid:

https://admiu.edu.az/wp-content/uploads/2024/08/Mezunlar_Assosiasiyasinin_Esasnamesi.pdf

# XV. UNİVERSİTETDƏN XARİCOLUNMA, KÖÇÜRÜLMƏ, AKADEMİK MƏZUNİYYƏT VƏ TƏLƏBƏLƏR SIRASINA BƏRPA

## 15.1. Xaric olunma

15.1.1. Tələbə aşağıdakı hallarda ali təhsil müəssisəsindən xaric edilir:

- öz arzusu ilə;
- ali təhsil müəssisəsi dəyişdikdə;
- ali təhsil müəssisəsinin daxili nizam-intizam qaydalarını kobud şəkildə (o cümlədən 3 ay davamlı olaraq dərslərdə iştirak etmədikdə və bu müddətdə ali təhsil müəssisəsi ilə əlaqə saxlamadıqda) və ya dəfələrlə pozduqda;
- səhhətinə görə (həkim-məsləhət (və ya tibbi-həkim ekspertiza) komissiyasının arayışına (və ya qərarına) əsasən);
- növbəti tədris ilinə qeydiyyatdan keçməyib həmin tədris ilinin payız semestrinin sonuna qədər ali təhsil müəssisəsi ilə əlaqə saxlamadıqda;
- əcnəbi və ya vətəndaşlığı olmayan şəxsə müvəqqəti yaşamaq üçün icazənin verilmədiyi (müddətinin uzadılmadığı) və ya həmin icazənin ləğv edildiyi halda;
- əcnəbi və ya vətəndaşlığı olmayan şəxs Azərbaycan Respublikasının təhsil müəssisəsinə əyani təhsilalma formasında qəbulu rəsmiləşdirildiyi tarixdən 90 (doxsan) gün müddətində Azərbaycan Respublikasının ərazisində yaşamaq üçün icazənin verildiyini təsdiq edən sənədin surətini təhsil müəssisəsinə təqdim etmədikdə;
- yekun dövlət attestasiyasından keçmədikdə (təqvim ilinin sonuna qədər yekun dövlət attestasiyasında iştirak etmədikdə).

15.1.2. “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən ali təhsil müəssisələrindən xaric edilmiş şəxslər 6 ay müddətində ali təhsil müəssisəsinə bərpa olunmadıqda ***çağırışa möhlət hüquqlarını itirirlər*** və ümumi əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırılırlar. Möhlət hüququnu itirmiş şəxslər barədə rəsmi məlumat bir həftə (7 gün) müddətində ali təhsil müəssisəsinin rektoru tərəfindən onların hərbi uçotda olduqları dövlət qurumuna verilir.

15.1.3. Tələbələr sırasından xaric edilmiş şəxsə “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 27.3-cü maddəsinə uyğun olaraq müvafiq arayış və şəxsi işində saxlanılan təhsil haqqında dövlət sənədinin əsli (olduğu halda) verilir, həmin sənədin surəti və xaric olunma haqqında əmrdən çıxarış isə ali təhsil müəssisəsində tələbənin şəxsi işində saxlanılır.

## 15.2. Tələbələr tərəfindən təhsil müəssisəsinin, ixtisasın, təhsilalma formasının dəyişdirilməsi (köçürülmə)

Köçürülmə - tələbələrin ölkə daxilində və xaricdə yerləşən ali təhsil müəssisələrindən köçürülməsi, yaxud bir ixtisasdan digərinə və təhsilalma formasının dəyişdirilməsi, eləcə də ölkəmizdə yerləşən orta ixtisas təhsili müəssisələrində, bakalavriat və magistratura səviyyəsində təhsilalanların köçürülməsi portalı “www.transfer.edu.az” 2016-cı ildən tələbələrin köçürülmə prosesinin sadələşdirilməsi məqsədi ilə istifadəyə verilib.Tələbələrin bir ali təhsil müəssisəsindən digər ali təhsil müəssisəsinə, yaxud bir ixtisasdan digərinə köçürülməsi Elm və Təhsil Nazirliyinin razılığı ilə **1 dəfə** ***yay*** **tətili dövründə** həyata keçirilir.

## 15.3. Akademik məzuniyyət

Akademik məzuniyyət aşağıdakı hallarda və müddətə verilir:

- müddətli həqiqi hərbi xidmətə çağırıldıqda – xidmət müddətinə (2 ildən çox olmamaqla);
- ailə vəziyyətinə görə – 2 il müddətinədək;

**Aşağıdakı hallarda** və **müvafiq sənədlər təqdim etməklə:**

- Həyat yoldaşının ölkə daxili və ya xaricinə təyinatı ilə bağlı yaşayış yerini dəyişdiyi üçün (müvafiq arayış);
- Ailə üzvlərindən birinin yataq xəstəsi olması ilə əlaqədar qulluq etmək zərurəti yarandıqda (müvafiq arayış);
- Ailə qurması ilə əlaqədar (nikah haqqında şəhadətnamə).

- səhhətinə görə – həkim-məsləhət komissiyasının arayışında göstərilən müddətə;
- sosial məzuniyyətə çıxdıqda – qanunvericiliklə müəyyən olunmuş müddətə;
- xarici ölkələrə öz hesabına təhsil almağa getdikdə – 1 ilədək;
- dövlət proqramları və təhsil sahəsində Azərbaycan Respublikası ilə xarici ölkələr arasında bağlanılmış müqavilələrə uyğun müəyyənləşdirilmiş kvota çərçivəsində Azərbaycan Respublikası vətəndaşları xarici ölkələrə təhsil almağa getdikdə – bakalavriat proqramlarında təhsil alanlara münasibətdə 1 (bir) ildən, magistratura proqramlarında təhsil alanlara münasibətdə 6 (altı) aydan çox olmamaqla.

Akademik məzuniyyətin götürülməsi ilə bağlı digər məsələlər **Azərbaycan Respublikası Elm və Təhsil**

**Nazirliyinin Kollegiyasının KQ-02 nömrəli 21 fevral 2024-cü il tarixli Qərarının 5-ci bəndinə əsasən həyata keçirilir.**

## 15.4. Tələbələr sırasına bərpa

Bərpa prosesi il ərzində iki dəfə **- yay** və **qış tətili** dövründə təşkil olunur.

Tələb olunan sənədlər aşağıdakılardır:

- ərizə
- şəxsiyyət vəsiqəsinin surəti
- mühasibatlıqdan arayış

İki növ bərpa mövcuddur: akademik məzuniyyətdən sonra bərpa və xaric olunduqdan sonra bərpa

*Akademik məzuniyyətdən* qayıdan tələbələr ərizə ilə müraciət etdikdən sonra dərhal tədrisə bərpa edilir. Tələbə akademik məzuniyyəti bitdikdən sonrakı 6 ay ərzində universitetlə əlaqə saxlamazsa xaric olunur.

*Xaric olunanların bərpası* isə Komissiya ilə həyata keçirilir. Universitetdən xaric olunmuş şəxslərin bərpası 15 il müddətində mümkündür. Ərizə ilə bərpa olunmaq üçün müraciət edən şəxslər əvvəlcədən onlara təyin olunmuş vaxtda Bərpa Komissiyasına gəlməlidirlər.

- payız semestrində təhsil müəssisəsindən xaric olunan şəxslər növbəti payız semestrində (semestrlərində), yaz semestrində xaric olunan şəxslər isə yalnız növbəti yaz semestrində (semestrlərində) təhsil müəssisəsinə bərpa olunurlar.

- bərpa zamanı tələbənin əvvəl təhsil aldığı ixtisas və təhsilalma forması üzrə kadr hazırlığı aparılmırsa, o, universitetdə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 39 nömrəli Qərarı ilə təsdiq edilmiş

“Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları” ilə müəyyən olunmuş eyni ixtisas qrupu daxilində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 39 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları” ilə müəyyən olunmuş eyni ixtisas qrupu daxilində digər ixtisas və təhsilalma forması üzrə bərpa oluna bilər.

- Magistratura səviyyəsində bərpa zamanı tələbənin əvvəl təhsil aldığı ali təhsil müəssisəsində öz ixtisaslaşması və təhsilalma forması üzrə kadr hazırlığı aparılmırsa, o, universitetdə ixtisası daxilində digər ixtisaslaşma və təhsilalma forması üzrə bərpa oluna bilər.

Bərpa ilə bağlı digər məsələlər **Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Kollegiyasının KQ-02 nömrəli 21 fevral 2024-cü il tarixli Qərarının 4-cü bəndinə əsasən həyata keçirilir.**

*Tələbələr tərəfindən təhsil müəssisəsinin, ixtisasın, təhsilalma formasının dəyişdirilməsi, onların təhsil müəssisəsinə bərpa olunması, habelə tələbələrin təhsilini müvəqqəti dayandırması (onlara akademik məzuniyyətin verilməsi) üçün müraciətin edilməsi* **Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Kollegiyasının KQ-02 nömrəli 21 fevral 2024-cü il tarixli Qərarının 6-cı bəndinə əsasən həyata keçirilir.**

Ali təhsil müəssisələrinin bakalavriat (əsas (baza ali) tibb təhsilində) və magistratura səviyyələrində, habelə orta ixtisas təhsili müəssisələrində təhsilalanlar tərəfindən təhsil müəssisəsinin, ixtisasın, təhsilalma formasının dəyişdirilməsi, onların xaric edilməsi, bərpa olunması və akademik

məzuniyyət götürülməsi qaydalarının təsdiq edilməsi, “Ali və orta ixtisas təhsili məktəbləri tələbələrinin köçürülməsi, tələbələr sırasından xaric edilməsi və bərpa olunması, akademik məzuniyyət alması və təkrar kursda saxlanılması haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 1996-cı il 7 avqust tarixli 402 nömrəli əmrində dəyişiklik edilməsi və “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində təhsilalanların köçürülməsi, xaric edilməsi, bərpa olunması və akademik məzuniyyət götürülməsinə dair Qaydalar”ın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Kollegiyasının 2017-ci il 15 noyabr tarixli, 5/2 nömrəli Qərarının ləğv edilməsi barədə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Kollegiasının Qərarı üçün keçid:

https://e-qanun.az/framework/56513

## XVI. BEYNƏLXALQ MÜBADİLƏ PROQRAMLARI

Hal-hazırda aktiv olaraq aşağıdakı layihələr həyata keçirilir.

- Mövlanə Mübadilə Proqramı
- ARUCAD ilə “3+1” ikili diplom və “Tələbə mübadilə proqramları”
- Jurgenev adına Qazaxıstan Milli İncəsənət Akademiyası ilə magistratura səviyyəsində ikili diplom proqramı
- Qazax Dövlət Pedaqoji Qızlar Universiteti
- Kurmanqazı adına Qazax Milli Konservatoriyası

➢ Erasmus+Jean Monnet Modulu çərçivəsində “Avropa Birliyinin mədəniyyət və incəsənət siyasəti” adlı seçmə fənn tədris olunur.

🌐 Beynəlxalq layihələr və mübadilə proqramları ilə bağlı ətraflı məlumat üçün Beynəlxalq əlaqələr üzrə prorektorluğa yaxınlaşa və ya saytımızı izləyə bilərsiniz.

https://admiu.edu.az/beyn%C9%99lxalq-%C9%99laq%C9%99l%C9%99r/

🌐 İkili diplom proqramları ilə bağlı ətraflı:

https://admiu.edu.az/ikili-diplom-proqramlari/

## XVII. KİTABXANA-İNFORMASİYA MƏRKƏZİ VƏ ONDAN İSTİFADƏ QAYDALARI

Müasir kompüterlərlə təchiz edilmiş və  ödənişsiz Wi-Fi xidməti olan Kitabxana –informasiya mərkəzinin(KİM) zəngin resurs bazası tələbələrin ixtiyarındadır. KİM-ə üzv yazılmaq üçün tələbə mərkəzə yaxınlaşır və  etibarlılıq müddəti nəzərə alınmaqla  smartkartını təqdim edir. Kitabxanadan istifadə qaydaları ilə tanış olur, müvafiq  oxucu formulyarında imzası ilə təsdiq edir.

**17.1. KİM-in iş rejimi və ünvanı**

- KİM 1 saylı binanın I korpusunda  həftənin 1-5-ci günləri saat $09^{00}$-$20^{00}$ kimi fasiləsiz işləyir;

2 saylı binada isə $09^{00}$-$18^{00}$ kimi fasiləsiz işləyir;

- KİM AR-nın Əmək Məcəlləsinə müvafiq olaraq təsdiq edilən bayram günləri və ümumxalq hüzn günündə fəaliyyət göstərmir;

- KİM 2 binada : ADMİU-nun 1 saylı (əsas) tədris korpusunda (İnşaatçılar prospekti 39) və 2 saylı tədris

korpusunda (Həsən bəy Zərdabi prospekti 39) fəaliyyət göstərir.

**17.2. KİM-dən istifadə qaydaları:**

- ADMİU-nun təhsilalanları, professor-müəllim heyəti və digər əməkdaşları şəxsiyyəti təsdiq edən sənədi (etibarlılıq müddəti nəzərə alınmaqla tələbə smartkartı yaxud işçi vəsiqəsi) təqdim etməklə KİM-ə yazıla bilər;
- Kənar istifadəçilər öncədən müraciət etməklə KİM-dən istifadə edə bilər. Kənar istifadəçilərə evə kitab verilişi (geri qaytaranadək) şəxsiyyəti təsdiq edən sənədin KİM-də saxlanılması şərtilə təmin olunur;
- KİM-ə yazılma zamanı istifadəçilər bu Qaydalarla tanış olmalı və onları yerinə yetirmək öhdəliyini oxucu formulyarında imzaları ilə təsdiq etməlidir. Qeydiyyatdan keçmiş oxucular KİM-in əməkdaşları tərəfindən bu Qaydalarla ətraflı tanış edilirlər.

**17.3. KİM-in əsas fəaliyyət istiqamətləri:**

- KİM-in Əsasnaməsinin müvafiq bəndlərinə uyğun olaraq bütün kateqoriyalardan olan oxuculara kitabxana, biblioqrafiya və informasiya xidmətləri göstərmək;
- KİM-in bütün resurslarından, kompüterlərdən, açıq "Wi-Fi" zonalardan istifadəni təmin etmək;
- Müasir informasiya mənbələri (elektron kataloq, rəqəmsal kitabxana və elektron məlumat bazaları) haqqında oxuculara tam məlumat vermək;
- Sənəd-informasiya resursunun seçimində və məlumat axtarışında oxuculara dəstək göstərmək;
- KİM-in fondlarında mühafizə olunan çap və elektron nəşrləri müvəqqəti istifadə üçün oxuculara vermək;

- Rəqəmsal texnologiyalardan istifadə etməklə, kitabxanalararası abonement vasitəsilə oxucuların sorğularını cavablandırmaq üçün informasiya resurslarını əldə etmək;

- ADMİU-da həyata keçirilən tədris, elmi-tədqiqat və tərbiyə işlərinə kömək məqsədi ilə informasiya mənbələrindən səmərəli və məqsədyönlü istifadə üçün oxuculara təqdim etdiyi bütün xidmətlər barədə məlumat vermək;

- Universitet rəhbərliyi, professor-müəllim heyəti, digər əməkdaşlar və təhsilalanların informasiyaya olan tələbatını optimal şəkildə ödəmək;

- Oxucuların bu Qaydalarda nəzərdə tutulmuş hüquqlarını təmin etmək.

**17.4. Oxucuların hüquqları:**

- KİM tərəfindən təqdim olunan bütün kitabxana-informasiya xidmətlərindən istifadə etmək;

- KİM-in fondlarında olan müxtəlif növ sənədlərdən (kitab, jurnal, konfrans materialı, not nəşri, albom, dissertasiya, avtoreferat və e-resurs) cari Qaydalara uyğun olaraq istifadə etmək;

- KİM-in fondunda kompletləşdirilmiş dissertasiyalardan (magistr və doktorluq) ADMİU rəhbərliyinin ünvanına yazılı müraciət etdikdən və ona müsbət cavab verildikdən sonra istifadə etmək;

- KİM-in fondlarının tərkibi və oxuculara təqdim olunan xidmətlər haqqında tam şəkildə məlumatlandırılmaq;

- Elektron kataloq və rəqəmsal kitabxanada axtarış, informasiya mənbələrinin seçilməsi və onlarla iş zamanı biblioqrafik kömək əldə etmək;

- Oxucular üçün nəzərdə tutulmuş kompüter və digər texniki avadanlıqlardan, eləcə də açıq “Wi-Fi” zonalarından

istifadə etmək, şəxsi nootbuk, planşet və qulaqcıqları kitabxanaya gətirmək.

- KİM-in daha səmərəli fəaliyyəti üçün təklif və tövsiyələr vermək, iradlar bildirmək.

**17.5. Oxucuların vəzifələri:**

**-** Sənəd-informasiya resursunu evə götürərkən oxucu formulyarında sənədin şifrəsi, müəllifi və ya sərlövhəsi, o cümlədən götürülmə tarixi qeyd edilikdən sonra müvafiq qaydada imza çəkmək;

- İstifadə üçün əldə olunan kitab və digər sənədlərə qayğı və ehtiyatla yanaşmaq;

- Oxu zallarında kitab və digər nəşrləri istifadə etdikdən sonra KİM-in əməkdaşına təhvil vermək;

- Eyni adda nəşrdən (çoxcildli nəşrlərin müxtəlif cildləri istisna) yalnız 1 nüsxə əldə etmək üçün müraciət etmək (qaytardıqdan sonra təkrar götürmək mümkündür);

- KİM-dən istifadə zamanı digər oxucunun formulyarından istifadə etməmək;

- KİM-in fonduna məxsus kitab və digər nəşrlər üzərində qeydlər aparmamaq, səhifələrini qatlamamaq və qətiyyən cırmamaq;

- Oxu zalına qida məhsulları və içkilər gətirməmək və zalı zibilləməmək;

- Kompüter və internet şəbəkəsindən tədrisə və peşəkar fəaliyyətə uyğun olmayan məqsədlərlə istifadə etməmək, kompüterlərə qadağan olunmuş hər hansı bir proqram təminatını yükləməmək və müxtəlif oyunlar oynamamaq;

- Sosial şəbəkələrdə müxtəlif çatlarda ünsiyyət qurmamaq və əyləncə xarakterli saytlardan istifadə etməmək;

- İş saatının bitməsinə 15 dəqiqə qalmış kompüterdə işi yekunlaşdırmaq.

**17.6. Oxucular aşağıdakı hallarda məsuliyyət daşıyır:**

- KİM-dən kitab götürərkən oxucu onu diqqətlə yoxlamalı və səhifələri cırılıbsa və ya kitab fiziki cəhətdən yararsız hala salınıbsa dərhal bu barədə KİM-in əməkdaşına məlumat verməlidir. Əks təqdirdə kitab geri qaytarılanda müşahidə edilən bütün fiziki çatışmazlıqlara görə sonuncu istifadəçi məsuliyyət daşıyır;
- Bu Qaydaların 5-ci bəndində müəyyən olunmuş vəzifələri pozduqlarına görə;
- Bütün növ sənədlərə, mebellərə, kompüter və digər kitabxana avadanlıqlarına ziyan vurduqlarına görə;
- KİM-in kitabını itirdiyinə və ya aşağıdakı cədvəldə müəyyən edilmiş müddətdə geri qaytarmadığına görə

| **Oxucuların evdə istifadəsi üçün verilən kitabların miqdarı və müddəti** | | |
|---|---|---|
| *Sənəd-informasiya resursunun növü* | *Hər bir oxucuya eyni vaxtda istifadəyə icazə verilən sənədin sayı* | *İstifadə müddəti* |
| Kitab (fondda nüsxə sayı 2-dən çox olduqda) | 10 | 30 gün |
| Kitab (fondda nüsxə sayı 1 olduqda) | - | Oxu zalında istifadə etməli |
| Jurnallar, konfrans materialları, elmi əsərlər | 2 | 7 gün |

| | | |
|---|---|---|
| Nadir nəşr | - | Oxu zalında istifadə etməli |
| Lüğət və ensiklopediyalar | - | Oxu zalında istifadə etməli |
| Dissertasiya | - | Oxu zalında istifadə etməli |
| Avtoreferat | - | Oxu zalında istifadə etməli |
| **Qeyd:** *KİM-in fondunda kitabın nüsxəsi çox sayda olduqda və ya həmin sənədə az müraciət edildikdə istifadə müddəti təkrar uzadıla bilər.* | | |

- Oxu zalında istifadəsinə icazə verilən sənədləri kitabxanadan kənara çıxartdığına görə;

- İstifadə üçün götürülmüş kitab və digər sənəd növlərinin üzərində qeydlər etdiyinə, səhifələri qatladığına və cırdığına görə;

- Oxu zalında etik davranış qaydalarını pozduğuna, sakitliyə və təmizliyə riayət etmədiyinə görə;

- İşgüzar səfər, akademik məzuniyyət və digər səbəblərlə əlaqəli uzun müddətə universitetdən uzaqlaşdıqda və ya xaric olunduqda KİM-ə aid olan kitabları geri qaytarmadığına görə;

- KİM-in oxu zallarında nəzarətsiz qoyulan və unudulan şəxsi əşyaların itirilməsinə görə;

- KİM-ə məxsus kitabı itirdiyinə və ya zədələdiyinə görə istifadəçi dəymiş ziyanı ödəməlidir;

- Oxucu tərəfindən qaytarılmamış, yararsız vəziyyətə salınmış, itirilmiş kitabın, çap əsərinin və digər materialın eynisi ilə əvəzlənməsi mümkün olmadıqda, KİM-in təqdim etdiyi siyahıdan kitabla(-rla) əvəzlənməsi həyata keçirilir. Bu

mümkün olmadıqda, itirilmiş kitabın qiymətinin 10 misli həcmində vəsait ödənilir.

**Qeyd:** *Bu Qaydaların tələblərinə oxucu tərəfindən riayət edilmədikdə, onun KİM-in xidmətlərindən istifadəsi qismən və ya tamamilə məhdudlaşdırılır. Bu Qaydaları kobud surətdə pozan oxucular barədə ADMİU rəhbərliyinə yazılı məlumat verilir.*

KİM-in İnternet səhifəsi və sosial media ünvanlar:

1. web: admiu.edu.az
2. Facebook: admiu.kitabxana
3. Instagram: admiu_kitabxana
4. YouTube: admiu kitabxana
5. Gmail: admiukitabxana@gmail.com

## XVIII. UNİVERSİTETLƏ ƏLAQƏ

Universitetlə əlaqə (+994 12) 599 00 54 nömrəsi və ya “info@admiu.edu.az” vasitəsilə aparılır. Bu nömrə ilə əlaqə saxlandıqda tələbə Ümumi şöbəyə yönləndirilir və buradan o müraciət etdiyi məsələ üzrə məsul istiqamətə yönləndirirlər.

Aşağıda qeyd olunan nömrələri (+994 12) 599 00 54 nömrəsindən sonra yığdıqda birbaşa lazım olan şöbə, bölmə, fakültə və ya kafedralarla əlaqə saxlamaq mümkündür.

Şöbələrlə əlaqə:

- Tədris şöbəsi - 159
- Mühasibatlıq - 158
- Kitabxana-informasiya mərkəzi - 154
- Ömürboyu təhsil, karyera və məzunlarla iş bölməsi - 105
- Beynəlxalq layihələr və əcnəbilərlə iş - 170
- Hərbi arayış: +99410-326-76-72

Fakültələrlə əlaqə:

- Teatr sənəti - 112
- Audiovizual sənətlər - 114
- Rəssamlıq - 113
- Kulturologiya - 4323449
- Musiqi sənəti – 4328578

## XIX. HƏRBİ XİDMƏT MƏSƏLƏLƏRİ

Hərbi arayış – Forma 10-un alınması üçün tələbələr əvvəlcə Musabəyov parkının yanında yerləşən 3 saylı tədris binasındakı 312 saylı otaqda yerləşən Mülki Müdafiə Qərargahının Xüsusi işlər və hərbi səfərbərlik üzrə mütəxəssisinə yaxınlaşmalı və ərizə yazmalıdırlar.

Qərargah eyni zamanda xaric olunan və akademik məzuniyyət götürən tələbələrin statusu ilə bağlı Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətini davamlı olaraq məlumatlandırır.

Tələbələrə hər təhsil səviyyəsində 1 dəfə möhlət verilir və xaric olunan və ya akademik məzuniyyət götürən tələbələr 6 ay ərzində bərpa olduqda möhlət hüquqlarını özlərində saxlayırlar. Bakalavriat səviyyəsində bu müddət əyani təhsilalma forması üzrə 4 il, qiyabi forma üzrə 5 ildir.

Hərbi xidmətə yarasız tələbələr üçün də müvafiq arayışlar Mülki Müdafiə Qərargahının Xüsusi işlər və hərbi səfərbərlik üzrə mütəxəssis tərəfindən verilir.

**Tələbəyə lazım olan sənədlər:**

1. İlkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (Ağ kağız adlanan mavi rəngli vəsiqə)
2. Şəxsiyyət vəsiqəsi və ya şəxsiyyəti təsdiq edən digər sənəd

Arayış iki gün ərzində verilir.

Hərbi arayışın alınması ilə əlaqədar məsələlərlə bağlı əlaqə nömrəsi:

**(+99410)-326-76-72**

## XX. REKTORA MƏKTUB

Tələbələr tədris prosesinə aid təklif, təşəkkür və şikayətlərlə bağlı rektora müraciət edə bilərlər. Şikayət, ödəniş, alt qrup, Edumanda yaranan problemlər, tədris və imtahan prosesinin gedişatında yaranan problemlərlə əlaqədardırsa ilkin olaraq tyutora, sonra dekanlığa, şikayət üzrə həlldən razı olmadıqda Tədris işləri üzrə prorektora (1 saylı bina II mərtəbə), son istansiya olaraq Rektora müraciət edilir.

Rektorla əlaqə saxlamaq üçün nə etməli:

**I.** Ümumi şöbədə ərizə yazmaq,

**II.** Rektorluğa müraciət edib görüş günü almaq və

**III.** Rektora ***“rektora.mektub@admiu.edu.az”*** ünvanı üzərindən email yazmaq mümkündür.

## XXI. UNİVERSİTET İSTİQAMƏTİNDƏ YAXIN İCTİMAİ NƏQLİYYAT

Universitet Bakı şəhərinin mərkəzi rayonlarından biri **Yasamal** rayonunun ərazisində yerləşir. Universitet ətrafında yaxın məsafədə ictimai nəqliyyat dayanacaqlarının, sosial təyinatlı müəssisələrin çoxluğu tələbələr üçün əlverilişlidir.

1. Bakı Metropoliteninin **Elmlər Akademiyası** stansiyası ADMİU-nun 1 və 2 saylı tədris binalarından piyada 15 dəqiqəlik məsafədə yerləşir *(Ünvan: AZ 1065, İnşaatçılar prospekti 39. Tel.: +994 12 599 00 54)*.

2. Bakı Metropoliteninin **Elmlər Akademiyası** və **İnşaatçılar** stansiyaları 3 saylı (Musabəyov parkının yanı) tədris binasından 15 dəqiqəlik piyada məsafədə yerləşir *(Ünvan: AZ 1100, Həsən bəy Zərdabi prospekti 39. Tel.: +994 12 432 77 43).*

3. ADMİU-nun 1 və 2 saylı tədris binalarına gəlmək üçün Bakı Nəqliyyat Agentliyinin **3, 14, 17, 96** saylı avtobuslardan istifadə mümkündür.

4. 3 saylı (Musabəyov parkının yanı) tədris binasına gəlmək üçün Bakı Nəqliyyat Agentliyinin **10, 14, 18, 29** saylı avtobuslardan istifadə mümkündür.

5. Xırdalan şəhərindən ADMİU-ya gəlmək üçün Bakı Beynəlxalq Avtovağzalına gələn marşrutlardan istifadə edə bilərsiniz. Daha sonra isə Bakı Metropoliteninin **Avtovağzal** stansiyasından metro vasitəsilə yuxarıda göstərilən stansiyalara gələ bilərsiniz. Avtobus dayanacağından **14, 29, 96 saylı** avtobuslar da ADMİU-ya gəlir.

6. Sumqayıt şəhərindən ADMİU-ya gəlmək üçün **Sumqayıt avtovağzalından** Bakı Beynəlxalq Avtovağzalına gələn marşrutlardan istifadə edə bilərsiniz. Daha sonra isə Bakı Metropoliteninin **Avtovağzal** stansiyasından metro vasitəsilə yuxarıda göstərilən stansiyalara gələ bilərsiniz. Avtobus dayanacağından **14, 29, 96 saylı** avtobuslar da ADMİU-ya gəlir.

7. Sumqayıt şəhərindən ADMİU-ya gəlmək üçün Sumqayıt Dəmiryol Vağzalından qatarlar vasitəsilə Bakı Dəmiryol Vağzalına gələ bilərsiniz, oradan metro ilə yuxarıda göstərilən stansiyalara gəlmək mümkündür. Avtobus dayanacağından **14 saylı** avtobus da ADMİU-ya gəlir.

## XXII. ADMİU ƏTRAFINDA ÖNƏMLİ MÜƏSSİSƏLƏR

***Xidmət mərkəzləri***

- 3 saylı ASAN Xidmət Mərkəzi Universitetin Musabəyov korpusunun yaxınlığında yerləşir *(Ünvan: Abbas Mirzə Şərifzadə küçəsi 157)*
- 1 saylı DOST Agentliyi Universitetin əsas tədris korpusunun yaxınlığında yerləşir *(Ünvan: İsmayıl bəy Qutqaşınlı küçəsi 86)*
- 12 saylı Notariat Universitetin əsas tədris korpusu ilə üzbəüz yerləşir *(Ünvan: İnşaatçılar prospekti 28 A)*

***Xəstəxanalar***

- 16 nömrəli poliklinika – piyada Universitetin əsas tədris korpusunun sağında 140 m məsafədə yerləşir *(Ünvan: İnşaatçılar prospekti 62)*
- Mərkəzi Gömrük Hospitalı – Universitetin əsas tədris korpusuna 260 m məsafədə yerləşir *(Ünvan: Kazım Kazımzadə küçəsi 118)*
- Mərkəzi Dənizçilər Xəstəxanası – Universitetin əsas tədris korpusuna 170 m məsafədə yerləşir *(Ünvan: İsmayıl bəy Qutqaşınlı küçəsi 19)*
- Olimp Hospitalı – Universitetin əsas tədris korpusuna 450 m məsafədə yerləşir
  *(Ünvan: İnşaatçılar prospekti 8-10)*

***Banklar***

- Kapital Bankın Hüseyn Cavid filialı *(Ünvan: Şəfaət Mehdiyev küçəsi 75)*
- Azərbaycan Beynəlxalq Bankının Yasamal filialı *(Ünvan: İnşaatçılar prospekti 533 məhəllə)*

➢ Xalq Bankın Baş filialı *(Ünvan: İnşaatçılar prospekti 22)*

➢ Bank of Bakunun Yasamal filialı *(Ünvan: Nazim Hikmət küçəsi 78)*

***Kitab evi***

➢ "Libraff" Kitab evi *(Ünvan: Hüseyn Cavid prospekti 100)*

***Apteklər***

➢ *Universitetin ətrafında 1-3 dəqiqəlik piyada məsafəsində çoxsaylı aptek mövcuddur (Ünvan: Əbdürrəhman bəy Haqverdiyev küçəsi 59-65)*

## XXIII. TƏLƏBƏLƏRİN TİBBİ VƏ YA DİGƏR TƏCİLİ HALLAR YARANDIĞI ZAMAN ƏLAQƏ SAXLAYA BİLƏCƏYİ NÖMRƏLƏR

| | |
|---|---|
| Yanğın söndürmə xidməti | 101 |
| Polis | 102 |
| Təcili yardım | 103 |
| Qaz xidməti | 104 |
| Dəqiq vaxt | 106 |
| Şəhərlərarası telefon rabitəsi | 107 |
| Bakı şəhəri məlumat bürosu | 109 |
| Fövqəladə Hallar Nazirliyi | 112 |
| Yol-nəqliyyat hadisəsi Təcili yardımı | 113 |
| Təhsildə Keyfiyyət Təminatı Agentliyi | 146-8 |
| Elm və Təhsil Nazirliyi məlumat mərkəzi | 146 |

# XXIV. ABREVİATURALAR

**ADMİU – Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**

**AMEA – Azərbaycan Milli Elmlər Akademiyası**

**AOİTAS – Ali və Orta İxtisas Təhsili Alt Sistemi**

**ARUCAD – Arkın Yaradıcı Sənətlər və Dizayn Universiteti**

**CEFR – Avropa Şurasının "Dillər üzrə Ümumavropa Çərçivə Sənədi"**

**CV – Curriculum vitae, Tərcümeyi-hal**

**DALF – Akademik səviyyəsi olanlar üçün fransız dili imtahanı**

**DELF – Başlanğıc və orta səviyyəsi olanlar üçün fransız dili imtahanı**

**DİM – Dövlət İmtahan Mərkəzi**

**DMA – Dövlət Məşğulluq Agentliyi**

**ETN – Elm və Təhsil Nazirliyi**

**IELTS – Beynəlxalq İngilis Dili İmtahanı Sistemi**

**KİM – Kitabxana-informasiya mərkəzi**

**KQ – Kollegiya Qərarı**

**MBA – Master of Business Administration Biznesin İdarə Edilməsi**

**MMC – Məhdud Məsuliyyətli Cəmiyyət**

**PHŞ – Publik Hüquqi Şəxs**

**STANAG – NATO-nun Hərbi personal üçün dil bilikləri standartı**

**TestDAF – Xarici dili alman dili olanlar üçün standartlaşdırılmış imtahan**

**TEYC – Tələbə Elmi-Yaradıcılıq Cəmiyyəti**

**TGT – Tələbə Gənclər Təşkilatı**
**THİK – Tələbə Həmkarlar İttifaqı Komitəsi**
**TTK – Təhsil tələbə krediti**
**ÜOMG – Ümumi Orta Müvəffəqiyyət Göstəricisi**

